**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

10 yanvar 2026-cı il | №01 (9156) | www.muallim.edu.az | muallim@media.edu.az

## PREZİDENT FƏRMAN İMZALADI

### Azərbaycanla İordaniya arasında Əməkdaşlıq Proqramı təsdiqlənib



Prezident İlham Əliyevin Fərmanı ilə “Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025-2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı” təsdiq edilib.

Fərmana görə, İcraedici Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İcraedici Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, Proqram 2025-ci il noyabrın 27-də Bakı şəhərində imzalanıb.

# ELM və TƏHSİL BİR YERDƏ OLMALIDIR

**“Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir.**

**Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır.**

**Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər.**

**Dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq.**

**Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir.**

**Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsi, - onların bir neçəsi xarici tərəfdaşlarla birlikdə, - yaradılıb.**

**Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var”.**

## Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsindən**

### Elm və təhsil sahəsindəki islahatlar universitetlər üçün də yeni imkanlar yaradır

### İstedadlı gənclər Azərbaycanın dayanıqlı inkişafını təmin edəcək

Bax səh. 6

# İslahatlar, yeniliklər, nailiyyətlər

## 2025-ci il təhsildə hansı uğurlarla yadda qaldı?

### Yeni təmayül məktəb layihəsi

**2025**-2026-cı tədris ilindən başlayaraq yeni təmayül məktəb (tam orta məktəb) layihəsinin tətbiqinə başlanılıb. Hazırda 13 şəhərdə yerləşən 14 ümumi təhsil müəssisəsində 1716 şagirdin (X sinifdə 1282, XI sinifdə 434 nəfər) və 264 müəllimin iştirakı ilə pilot qaydada həyata keçirilir. Modelin tətbiqinin məqsədi müvafiq siniflərdə təhsil alan şagirdlərin meyil, maraq və qabiliyyətlərinə uyğun istiqamətlər üzrə dərinləşdirilmiş və sistemli bilik verilməsi, müasir əmək bazarına uyğun bacarıqların formalaşdırılması, yüksək akademik hazırlığın təmin olunmasıdır.

### Yeni ali təhsil proqramları

Nazirlər Kabinetinin müvafiq qərarları ilə ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatları yeni redaksiyada təsdiq edilib. Yeni təsnifatların qüvvəyə minməsi müasir tələblərə və əmək bazarının ehtiyaclarına uyğun, səriştə əsaslı və tələbəyönümlü təhsil proqramlarının hazırlanmasını zəruri edib. Bu məqsədlə Elm və Təhsil Nazirliyi tərəfindən yeni təsnifata uyğun olaraq ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili və magistratura səviyyələri üzrə təhsil proqramlarının hazırlanması üçün komissiya yaradılıb. Komissiyanın tərkibində 9 istiqamət üzrə işçi qrupları formalaşdırılıb, hər bir işçi qrupuna ali təhsil müəssisələrinin rəhbərləri və əmək bazarı nümayəndələri həmsədrlik edib. İşçi qrupları tərəfindən magistratura səviyyəsində 10 ixtisas qrupu üzrə ümumilikdə 129 ixtisas və 925 ixtisaslaşma ilə bağlı təkliflər hazırlanıb. Həmin işçi qrupları tərəfindən ali təhsilin bakalavriat səviyyəsinin təsnifatına yeni əlavə edilmiş “Davamlı inkişaf”, “Data analitikası” və “Fizioterapiya” ixtisasları, habelə magistratura səviyyəsinin təsnifatına daxil olan 124 ixtisas üzrə (5 ixtisas üzrə tələbə qəbulu aparılmadığına görə proqram hazırlanmayıb) məzunun peşə səriştələrini və proqramların təlim nəticələrini özündə əks etdirən təhsil proqramları hazırlanıb.

### Yeni peşə təhsili müəssisələri

“Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2026-2030-cu illər ərzində müasir standartlara cavab verən 21 peşə təhsili müəssisəsinin tikintisi və 2 peşə təhsili müəssisəsinin əsaslı təmirinin aparılması nəzərdə tutulur.

Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə il ərzində 975 nəfəri əhatə edən qısamüddətli, 350 nəfəri əhatə edən ixtisasartırma təlimləri keçirilib. Təlimlər ümumilikdə 42 ixtisas üzrə 12 müəssisədə həyata keçirilib.









# ELM VƏ TƏHSİL BİR YERDƏ OLMALIDIR





## "Biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir"

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verib. Dövlətimizin başçısı müsahibəsində Azərbaycan dilinin, ədəbi dilin saflığının qorunması ilə bağlı mühüm məqamlara toxunaraq bu istiqamətdə dövlət siyasətinin əsas prinsiplərini diqqətə çatdırıb, elm və təhsil sahəsində aparılan islahatlarla bağlı sualı da cavablandırıb.**

## "Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun"

"Cənab Prezident, ingilis dilində, rus dilində mükəmməl danışırsınız, amma Azərbaycan dili Sizdən ötrü həyati əhəmiyyətə malik bir anlayışdır. Noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən iclasda Siz yenidən bu mövzunu qaldırdınız və Azərbaycan dilinin, ədəbi dilinin saflığının qorunması istiqamətində mediaya, ziyalılarımıza çox ciddi tapşırıqlar verdiniz. Ümumiyyətlə bu, yəqin ki, yalnız "Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan!" deyəndə qəhərlənən Heydər Əliyevin Sizin təhtəlşüurunuzda buraxdığı iz deyil, bu, yalnız qrammatika deyil, yalnız leksika, nə bilim, morfologiya deyil. Burada ola bilər ki, orta statistik azərbaycanlının başa düşmədiyi bir dərin mətləb var. Niyə bu qədər Siz Azərbaycan dilini qorumağı tapşırırsınız, hər dəfə təkidlə, təkidlə, təkidlə? Nə təhlükə var?", sualına cavab olaraq Prezident İlham Əliyev aşağıdakı fikirləri söyləyib:

"Bilirsiniz, ilk növbədə, dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik.

İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən - istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm.

Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur. Bu, əlbəttə ki, çətindir, çünki xaricdə yaşayan azərbaycanlıların, təbii ki, hər birinin imkanı yoxdur. Amma arzum budur və burada jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində, sizə aid deyil. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da açıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq".

"Cənab Prezident, bu mövzunun davamı olaraq, dövləti, milləti güclü edən həm də elm və təhsildir. Bir neçə il bundan əvvəl Sizin savadlı millət, "qara qızıl"ı insan kapitalına çevirmək ilə bağlı konsepsiyanız var idi. Azərbaycanda elm və təhsil sahəsində mövcud vəziyyəti necə dəyərləndirirsiniz? Hansı addımlar atılmalıdır? Sizin gənclərə bu baxımdan tövsiyəniz nədən ibarət olardı?", sualına cavab olaraq Prezident İlham Əliyev aşağıdakıları qeyd edib:

"Bilirsiniz ki, biz artıq struktur dəyişiklikləri də etdik, Elm və Təhsil Nazirliyi yaradıldı. Nə üçün? Çünki faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Elmlər Akademiyası təbii ki, artıq uzun illərdir fəaliyyət göstərir və mən də yubiley tədbirlərində iştirak etmişəm. Amma, eyni zamanda, dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik.

Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsi, - onların bir neçəsi xarici tərəfdaşlarla birlikdə, - yaradılıb. Məsələn, ikisi Rusiya, biri Fransa, biri Türkiyə, biri də İtaliya ilə — beş. Qalanını da özümüz, o cümlədən Qarabağ Universiteti. Bu, dövlətin niyyətidir, dövlətin siyasətidir. Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq.

Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir. Mən 22 ildir bu kürsüdəyəm. Bütün bu hadisələr mənim gözümün qabağında baş verir və həm yaxşı, həm də pis təcrübə, hamısı məndədir. Mən onun hamısını yaşamışam və bu da mənə bu gün bu sözləri deməyə imkan verir. Kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi - çünki bunlar olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır. Əlbəttə, hər birimiz ölkəmiz üçün ancaq yaxşı günlər arzulayırıq və verdiyiniz bu sual da çox vaxtında verilən sualdır. Bu da ayrıca bir danışığın, yəni söhbətin mövzusudur. Ancaq hesab edirəm ki, biz düzgün yoldayıq və islahatlar davam etdiriləcək".

Prezident həmçinin qeyd edib ki, son 20 il ərzində Azərbaycanda 3 600 məktəb, yüzlərlə xəstəxana tikilib və əsaslı təmir edilib: "Bu bizim siyasətimizin, o cümlədən iqtisadi siyasətin ayrılmaz hissəsidir və yenə də deyirəm, iqtisadiyyatımız nə qədər artsa, ilk növbədə o qədər də sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq".

**İlham ƏLİYEV,**
*Azərbaycan Prezidenti*

**“Siz vətəndaşların qayğıları ilə yaşamalısınız, onların problemlərini öyrənməlisiniz, düzgün təhlil aparmalısınız”.**

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əsas hədəflərindən biri kimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar uğurlu nəticələrini verməklə ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətinə çevrilərək vətəndaş məmnunluğunun təmin edilməsini, məmur davranış məsuliyyətinin yüksəldilməsini, şəffaflığın gücləndirilməsini və regional inkişafın sürətləndirilməsini hədəf seçib. Bu yanaşma təkcə idarəetmə mexanizmlərinin yenilənməsi deyil, eyni zamanda dövlət-vətəndaş münasibətlərinin mahiyyət etibarilə modernləşdirilməsidir. Dövlət idarəetməsi dövlətin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, rifah və məmnunluq səviyyəsinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu gün vətəndaş müraciətlərinə həssas münasibət, vətəndaşlara xidmət mədəniyyəti islahatlar paketinin mühüm istiqaməti kimi müəyyənləşdirilib. Dövlət başçısı İlham Əliyev çıxışlarında vətəndaşlara və onların problemlərinə daim böyük qayğı, diqqət və xüsusi həssaslıqla yanaşılmasını bildirərək məmurların qarşısında ciddi tələb və mühüm vəzifələr qoyur. Ölkə Prezidenti dövlət-vətəndaş arasında münasibətin, qarşılıqlı etimadın əyani vasitəsi olan vətəndaş müraciətlərinə baxılmasında şəffaflığın və nəzarətin gücləndirilməsinə xüsusi önəm verir.




Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyində (MÜTDA) vətəndaş müraciətlərinə baxılmasında tətbiq olunan yenilikləri yaxşı nümunələrdən biri hesab etmək olar.

MÜTDA-ya müraciət edən vətəndaşların vəzifəli şəxslər tərəfindən qəbulunun rahat və əlçatan olması, müraciətlərə baxılmasının sürətləndirilməsi, araşdırılması işin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Agentlikdə vətəndaşların qəbulu zamanı onlara verilən hər bir cavab qeyd olunur və aidiyyəti üzrə yönləndirilir. Vətəndaş qəbulu mərkəzində hər bir vətəndaş gözləmə növbəsi ilə qəbul mərkəzinin əməkdaşlarına yaxınlaşaraq müraciətini bildirir. Əməkdaşlar vətəndaşlara həssaslıqla yanaşaraq müraciətlərini diqqətlə dinləyib məsələni aidiyyəti bölmə və sektora bildirərək qanunvericilik çərçivəsində həlli yollarını aydınlaşdırırlar. Eyni zamanda burada həssas qrupdan olan şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, müharibə veteranları, əlilliyi olan şəxslər və digər kateqoriyadan olan vətəndaşlara xüsusi qayğı və diqqətlə yanaşılaraq onların problemlərinin qanunla müəyyən olunmuş qaydada həllinə köməklik göstərilir. Vətəndaş qəbulu mərkəzinə il ərzində 8500-dən çox vətəndaş müraciət edib, bunlardan çoxu müəllimlərin işə qəbulu, müəllim yerdəyişməsi, sertifikasiya, şagird yerdəyişməsi ilə bağlı olub. Ay ərzində təxminən 700-dən artıq vətəndaşa xidmət göstərilib.




Xidmət səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə bütün qəbullar video-audio nəzarəti altında aparılır, hər bir vətəndaşın müraciətinə xüsusi şəkildə baxılır, ona qanunvericiliyin tələblərinə uyğun olaraq köməklik göstərilir. Agentliyin vətəndaş müraciətlərinə baxılması və vətəndaşların qəbulu ilə bağlı həyata keçirdiyi sistemli islahatlar yalnız bir məqsədə - vətəndaş məmnunluğunun təmin olunmasına və insanları narahat edən problemlərin həllinə xidmət edir. Tətbiq olunan mütərəqqi yeniliklər imkan verir ki, vətəndaşların üzləşdikləri problemləri aradan qaldırmaqla yanaşı, həm də onların səbəbləri müəyyən olunsun, son nəticədə vətəndaşlar onlara göstərilən xidmətdən daha real və səmərəli şəkildə faydalansınlar.

SMM xidməti, sosial media platformaları üzərindən daxil olan bütün müraciətlərin operativ, dəqiq və peşəkar şəkildə cavablandırılmasını təmin edən, vətəndaş məmnuniyyətinin gücləndirilməsinə yönəlmiş xidmətdir. MÜTDA-nın SMM xidmətinə il ərzində 70 mindən çox, ay ərzində isə 5 mindən artıq vətəndaş müraciəti daxil olub. Müraciətlər SMM əməkdaşları tərəfindən 24 saat ərzində cavablandırılır. Bura əsasən müəllimlərin işə qəbulu, iş yerinin dəyişdirilməsi, sertifikasiyası, şagirdlərin yerdəyişməsi, birinci sinfə və məktəbəhazırlıq qruplarına qəbulu, məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulu, tərbiyəçi-müəllimlərin işə qəbulu və digər məsələlərlə bağlı müraciətlər daxil olub.

Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Çağrı Mərkəzi ümumi məlumat mərkəzidir. Çağrı Mərkəzinə daxil olan müraciətlər operativ şəkildə cavablandırılır və aidiyyəti istiqamətlərə yönləndirilir. İl ərzində Çağrı Mərkəzinə 140 mindən çox müraciət daxil olub. Suallar əsasən müəllimlərin işə qəbulu, iş yerinin dəyişdirilməsi, sertifikasiya, şagird qəbulu, məktəbəhazırlıq və digər təhsil mövzuları ilə bağlıdır. Bununla yanaşı, Çağrı Mərkəzi Elm və Təhsil Nazirliyinin, eləcə də agentlik rəhbərliyinin qəbuluna yazılan vətəndaşların qeydiyyatı prosesini həyata keçirir. Mərkəzin fəaliyyətinin əsas məqsədi müraciət edən vətəndaşların məlumatlarını qeydə alaraq, aidiyyəti üzrə yönləndirilməsini təmin etmək və müraciətlərin operativ şəkildə həllinə dəstək göstərməkdir. Bütün bunlar vətəndaşların müraciətlərinə daha operativ və effektiv şəkildə cavab verilməsi ilə yanaşı vətəndaş məmnunluğuna da xidmət edir.

**Rəşad ZİYADOV,**
*Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin mütəxəssisi*




# Elm və təhsil naziri Kürdəmirdə vətəndaşları qəbul edəcək




Elm və təhsil naziri Emin Əmrullayev 30 yanvar tarixində Kürdəmir şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Kürdəmir, Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 16 yanvar (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994512067848 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Vətəndaş müraciətlərinin STATİSTİKASI




Dekabrın 16-dan 29-dək Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarına 16 941 vətəndaş müraciəti daxil olub. Müraciətlərin 9807-si çağrı mərkəzləri, 3886-sı elektron, 1064-ü isə yazılı formada yönləndirilib. Həmçinin vətəndaş qəbulu zamanı 2184 müraciət qeydə alınıb. Müraciətlər eksternat imtahanı, “Rəqəmsal məktəb”, qrant layihələri, şagird yerdəyişməsi və digər məsələlərlə bağlı olub.

# İslahatlar, yeniliklər, nailiyyətlər

# 2025-ci il təhsildə hansı uğurlarla yadda qaldı?






## Məktəbəqədər və ümumi təhsil

**Məktəbəqədər və ümumi təhsil**

*220000 uşaq məktəbəqədər təhsil alır*

2025-ci ildə ölkə üzrə 220 min uşaq məktəbəqədər təhsilə cəlb edilib. Hazırda ölkə ərazisində 1708 dövlət məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

*131 mindən çox uşaq birinci sinfə gedib*

2025-2026-cı tədris ili üzrə 131 min 815 uşaq birinci sinfə qəbul edilib.

*86 mindən çox uşaq məktəbəhazırlığa gedib*

2025-ci ildə 86395 uşaq ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına qəbul edilib.

*Ölkə üzrə məktəb və şagird sayı*

Bu gün ölkədə 4279 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda müəllim heyəti 130 mindir, şagird sayı isə 1600000-dən çoxdur.

*Yeni tikilən və təmir edilən təhsil müəssisələri*

Ötən illərdən investisiya büdcəsi hesabına əsaslı təmir olunan və ya tikilən 18 ümumi təhsil müəssisəsinin açılışı baş tutub. 137-si əsaslı olmaqla, 760 ümumi təhsil müəssisəsində təmir işləri aparılıb.

*İnklüziv təhsil*

2025-ci il ərzində əlavə 22 ümumi təhsil müəssisəsində inklüziv siniflər fəaliyyətə başlayıb. Ümumilikdə 89 məktəbdə inklüziv təhsil tətbiq olunur.

*Səriştəəsaslı məzmunun tətbiqi, dərslik hazırlığı, tədris planları*

5 fənn (Azərbaycan dili, ədəbiyyat, coğrafiya, fizika, informatika fənləri) üzrə təhsil proqramı (kurikulumu) təkmilləşdirilərək 2025-ci ildə təsdiq edilib. Ümumi təhsil müəssisələri üçün 49 adda (44 adda yeni hazırlanmış, 5 adda təkmilləşdirilmiş) dərslik və metodiki vəsaitin hazırlanması və təkmilləşdirilməsi ilə bağlı işlər aparılıb. Bununla yanaşı, ümumi təhsil müəssisələrinin dərslik ehtiyaclarının təmin olunması üçün 302 adda 6863600 nüsxə dərsliyin çapı yekunlaşdırılaraq məktəblərə çatdırılıb.

Ümumi təhsil pilləsində tədrisin təşkili üçün 20 adda tədris planı hazırlanaraq təsdiq olunub.

*Lisey və gimnaziyalara qəbul*

Bakı şəhəri və bəzi bölgələrdə yerləşən lisey və gimnaziyalara qəbul prosesində 29375 şagird qeydiyyatdan keçib, 26627 şagird qəbul imtahanında iştirak edib. 39 lisey və gimnaziya üzrə 5493 vakant yer ayrılıb. Vakant yerlərin 4784-ü, yəni 87,09 %-i tutulub.

*İKT infrastrukturunun inkişaf etdirilməsi*

Ölkə üzrə 4254 təhsil müəssisəsi Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) və internetə çıxışla təmin edilib. Bunlardan 2526 geniş zolaqlı optik (ayrılmış xətt ilə 1755 FO və 771 GPON), 1448 simsiz və 280 ADSL rabitə kanalı vasitəsilə çıxışla təmin edilib.

*"Rəqəmsal məktəb"*

Hazırda Bakı şəhəri üzrə dövlət ümumi təhsil müəssisələrində tətbiq olunan "Rəqəmsal məktəb" platformasından ümumilikdə 685 mindən çox istifadəçi yararlanır. Bunlardan 39000 müəllim, 379000 şagird və 267000 isə valideyndir.

*"Müəllim" tətbiqi*

"Rəqəmsal məktəb" layihəsi çərçivəsində ümumi təhsil müəssisələrində rəqəmsal idarəetmənin gücləndirilməsi və tədris prosesinin effektivliyinin artırılması məqsədilə müəllimlər üçün "Müəllim" mobil tətbiqi istifadəyə verilib. Hazırda bu tətbiq Bakı şəhərində 350-dən çox ümumi təhsil müəssisəsində istifadə olunur.

*Müəllimlərin işə qəbulu*

2025-ci ildə müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsi üzrə ümumilikdə 65565 elektron müraciət qəbul edilib. 3416 namizəd müsabiqədə uğur qazanaraq işlə təmin olunub. Bu il MİQ nəticəsində əsas fənlər üzrə vakant yerlərin tutulma göstəricisi 90 faizdən çox olub.

*Müəllimlərin sertifikatlaşdırılması*

2025-ci ildə müəllimlərin sertifikatlaşdırılması prosesinə cəlb olunan iştirakçı sayı 19681, uğur qazanan isə 16587 nəfər olub. Ümumilikdə 73262 müəllim sertifikatlaşdırmadan keçərək əməkhaqqısını artımla alır. Sertifikatlaşmadan keçən müəllimlərin orta dərs yükü 17.5-dən 19.5-ə qalxıb.

*Müəllimlərin yerdəyişməsi*

Müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsində 1356 nəfər uğur qazanaraq iş yerini dəyişdirib. Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi prosesində isə 150 nəfər iş yerini qarşılıqlı dəyişdirib.

*Yeni təmayül məktəb layihəsi*

2025-2026-cı tədris ilindən başlayaraq yeni təmayül məktəb (tam orta məktəb) layihəsinin tətbiqinə başlanılıb. Hazırda 13 şəhərdə yerləşən 14 ümumi təhsil müəssisəsində 1716 şagirdin (X sinifdə 1282, XI sinifdə 434 nəfər) və 264 müəllimin iştirakı ilə pilot qaydada həyata keçirilir. Modelin tətbiqinin məqsədi müvafiq siniflərdə təhsil alan şagirdlərin meyil, maraq və qabiliyyətlərinə uyğun istiqamətlər üzrə dərinləşdirilmiş və sistemli bilik verilməsi, müasir əmək bazarına uyğun bacarıqların formalaşdırılması, yüksək akademik hazırlığın təmin olunmasıdır.

*STEAM*

STEAM Azərbaycan layihəsinin əhatə dairəsi cari tədris ilində genişləndirilərək 407 ümumi təhsil müəssisəsinə və ümumilikdə 303109 şagirdə çatdırılıb. 2025-2026-cı tədris ilindən etibarən layihənin 3-cü siniflərdə də tətbiqinə start verilib. 17-19 noyabr 2025-ci il tarixlərində Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) keçirilib. Ölkəmizdə beşinci dəfə keçirilən bu festivalda 22 ölkəni təmsil edən 1400-dən çox nümayəndə və 80-dən çox münsiflər heyəti iştirak edib.

*"Rəqəmsal bacarıqlar"*

2017-ci ildən ölkədə tətbiq edilən "Rəqəmsal bacarıqlar" layihəsi hazırda 772 ümumi təhsil müəssisəsini və 528 mindən çox şagirdi əhatə edir. Layihənin məqsədi şagirdlərin İKT bacarıqlarına dərindən yiyələnməsi, onların informasiya məkanında məqsədyönlü fəaliyyətinə nail olunması, müasir səriştə və bacarıqlara malik şəxslər kimi formalaşmasına dəstək göstərməkdir.

*"Peşə təmayüllü siniflər"*

2025-2026-ci tədris ilində 9000-dən çox şagird peşə təmayüllü siniflərdə təhsil alır. Hazırda layihə 327 məktəbdə və 1 pilot olaraq xüsusi təhsil məktəbində, 536 sinif və 1 xüsusi təhsil sinfində, 1073 ixtisas qrupu və 1399 müəllim heyətini əhatə edir. Peşə təmayüllü siniflərdə 4 profil üzrə dülgər, çilingər, aşpaz, kombi-kondisioner ustası, mebel quraşdırma, aqronom, dərzi, qənnadçı, bərbər, "helpdesk", qrafik dizayner, kompüter operatoru peşə ixtisasları tədris edilir.

*Şagirdlərimizin yerli və beynəlxalq uğurları*

2025-ci ildə beynəlxalq olimpiadalarda ümumilikdə 93 şagird iştirak edib. Şagirdlərimiz bilik yarışlarında 5 qızıl, 18 gümüş, 33 bürünc medal və 16 həvəsləndirici sertifikat qazanıblar. Ölkənin 65 bölgəsində 8 fənn üzrə keçirilən **Respublika Fənn Olimpiadalarında** 90147 şagird qeydiyyatdan keçib. Fənn olimpiadalarında 95 qızıl, 170 gümüş və 249 bürünc medal qazanılıb. **"Qərbi Azərbaycana qayıdış" olimpiadası** IX və X sinif şagirdləri arasında təşkil olunub. Ümumilikdə 9872 şagird iştirak edib, 3 qızıl, 6 gümüş və 9 bürünc medal qazanılıb. **"Zəkaların mübarizəsi" olimpiadası** iştirakçıların şahmat və bilik səviyyəsini müəyyən etməklə, 2 mərhələli, komanda yarışı formatında keçirilib. Komanda yarışları üzrə 6, fərdi yarışlar üzrə 15 nəfər şagird medal və hədiyyələrlə təltif olunub.

*"Sabahın alimləri" XIV respublika layihə müsabiqəsi*

"Sabahın alimləri" XIV respublika layihə müsabiqəsində şagirdlər 9 istiqamət üzrə 247 layihə ilə yarışıblar. Müsabiqədə müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 102 şagird layiq görülüb. Qaliblər arasından seçilən 3 layihə üzrə 6 şagird ölkəmizi ABŞ-nin Kolombus şəhərində keçirilən "Regeneron ISEF"də təmsil edib və bürünc medal qazanıb.

*Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları*

**PISA 2025**

Respublika üzrə Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatının (PISA 2025) əsas mərhələsi 16 aprel - 27 may 2025-ci il tarixlərində təşkil olunub. Tədqiqatda ümumilikdə 241 ümumi təhsil müəssisəsindən 7400-dən çox şagird və həmin məktəblərin 241 rəhbəri, 5 özəl müəssisə iştirak edib.

**PIRLS 2026**

2025-ci ilin aprel ayında Azərbaycanda 4-cü sinif şagirdlərinin oxuyub-anlama bacarığını qiymətləndirən Oxu Savadlılığının İnkişafı üzrə Beynəlxalq Qiymətləndirmə Tədqiqatının (PIRLS 2026) sınaq mərhələsi keçirilib. Sınaq mərhələsində Azərbaycanın bütün bölgələrindən seçilmiş 25 məktəb üzrə 32 sinifdən 700-dən çox şagird həm imtahan, həm də sorğu mərhələsi üzrə tapşırıqları cavablandırıb. Eyni zamanda seçilmiş hər şagirdin valideyni (700-dən çox), həmin şagirdlərin təhsil aldıqları məktəblərin direktorları (25) və seçilmiş hər sinfin müəllimi (32) də onlar üçün nəzərdə tutulmuş sorğuda iştirak edib. Tədqiqatın əsas mərhələsi 2026-cı ilin aprel-may ayları ərzində ölkənin bütün bölgələrindən seçilmiş 224 məktəb üzrə 9 minə yaxın şagird arasında keçiriləcək.

**IELS 2025**

Beynəlxalq Erkən Öyrənmə və Uşaq Rifahı Tədqiqatının (IELS 2025) əsas mərhələsi 2025-ci ilin 21 yanvar-18 mart tarixlərində Bakı və Sumqayıt şəhərlərində həyata keçirilib. Əsas mərhələdə 208 təhsil müəssisəsi üzrə 2678 nəfər 5 yaşlı uşaq qiymətləndirmədə iştirak edib. IELS beynəlxalq qiymətləndirmə tədqiqatının sorğu mərhələsində isə 825 müəllim və 2699 valideyn təqdim edilən sualları cavablandırıb.

**PISA-nın iqlim savadlılığı sahəsi üzrə pilot mərhələsi**

Azərbaycanda 14-16 yaşlı şagirdlər arasında iqlim savadlılığı üzrə qiymətləndirmənin pilot mərhələsi oktyabr ayında həyata keçirilib. Pilot mərhələdə 65 ümumi təhsil müəssisəsindən 1500-dən çox şagird iştirak edib.

### Təhsildə nailiyyətlərin qiymətləndirilməsi

2025-ci il mayın 17-də bütün dövlət ümumi təhsil müəssisələrinin IV siniflərində, 18 may tarixində isə VI siniflərində monitorinq keçirilib. Monitorinqdə IV sinif şagirdlərinə tədris dili fənni üzrə 30 qapalı sual, riyaziyyat fənni üzrə 25 qapalı və 5 açıq kodlaşan sual, VI sinif şagirdlərinə tədris dili və təbiət fənlərinin hər birindən 25 qapalı, riyaziyyat fənni üzrə 20 qapalı və 5 açıq kodlaşan sual təqdim olunub. Monitorinqə 145604 nəfər IV sinif şagirdi, 152321 nəfər VI sinif şagirdi cəlb olunub.

### Müasirləşən metodistlər

"Müasir metodik xidmətin təşkili" çərçivəsində Təhsil İnstitutu tərəfindən metodist vəzifəsi üzrə müsabiqə elan edilib. Müsabiqə şərtlərinə uyğun olaraq namizədlərlə müsahibələr keçirilib, nəticədə 552 nəfər namizəd "Metodist hazırlığı" təlimlərinə cəlb edilib. Qiymətləndirmə nəticələrinə əsasən ümumi təhsil müəssisələrində metodist vəzifəsinə uyğun hesab edilən 351 nəfər namizədlə əmək müqaviləsi bağlanıb.

### Təhsilverənlərin peşəkar inkişafı

Ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə 45000 təhsilverən müxtəlif məzmunlu ixtisasartırma təlimlərinə cəlb edilib.

### "ZəfərFest-5" yaradıcılıq festivalı

Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Vətən müharibəsinin 5-ci ildönümünə həsr olunmuş "ZəfərFest-5" yaradıcılıq festivalı keçirilib. 2000-ə yaxın məktəblinin iştirakı ilə keçirilən festival artıq 5-ci dəfədir təşkil olunur. Festival hər il gənclərin vətənpərvərlik ruhunun, yaradıcılıq bacarıqlarının nümayişi üçün mühüm platformaya çevrilib.

### "Şuşa türk xalqları birliyinin mədəniyyət incisidir"

2005-ci ilin iyunun 1-də türk dövlətlərinin məktəbliləri arasında "Şuşa türk xalqları birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib. Şuşa şəhərində baş tutan festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Kipr Türk Respublikası və Macarıstandan 300 nəfərə yaxın məktəbli ölkələrinin musiqi və rəqs mədəniyyətini təqdim edib.

### "Məktəblərdə Konstitusiya və Suverenlik ayı" layihəsi

Ölkə üzrə 2025-ci ilin noyabr ayında "Məktəblərdə Konstitusiya və Suverenlik ayı" layihəsi keçirilib. Layihə çərçivəsində mövzuya uyğun olaraq ümumi təhsil müəssisələrində "dəyirmi masa"lar, debatlar, məqalə və kitablarla tanışlıq, sinif təşkilat saatları, seminar və müsabiqələr təşkil edilib, maairfləndirici stendlər, videoçarxlar nümayiş olunub. Layihədə 30000 nəfərdən çox məktəbli iştirak edib.

### Böyük Qayıdış

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası istiqamətində işğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturunun yaradılması işləri həyata keçirilib. Ötən müddət ərzində 21 ümumi, 14 məktəbəqədər təhsil müəssisəsi tikilib. Fəaliyyət göstərən 20 ümumi təhsil müəssisəsində 3902 şagird təhsil alır və 370 nəfər təhsilverən, 131 nəfər texniki işçi çalışır. Fəaliyyət göstərən 7 məktəbəqədər təhsil müəssisəsində 270 uşaq təhsil alır və 25 nəfər təhsilverən, 58 nəfər texniki işçi çalışır.

# İslahatlar, yeniliklər, nailiyyətlər

# 2025-ci il təhsildə hansı uğurlarla yadda qaldı?






## Peşə təhsili

*Tələbə qəbulu*

2025-ci ildə 78 peşə təhsili müəssisəsində 152 ixtisas üzrə tələbə qəbulu aparılıb. Ümumilikdə 32620 plan yeri müsabiqəyə çıxarılıb. Onlardan 23280-i dövlət sifarişli, 8340-ı isə ödənişli əsaslarladır. Müraciət edən 46 789 nəfərdən 27021 nəfəri peşə təhsili müəssisələrinə qəbul olunub. Tələbələrin 84%-i dövlət sifarişli, 16%-i ödənişli əsaslarla qəbul olunub. Onların 39%-i (10489 nəfər) qadındır. Peşə təhsili almaq üçün müraciət edənlərin orta yaş həddi 21, ən aşağı yaş həddi 13, ən yuxarı yaş həddi isə 78-dir. Qəbul olunan tələbələrdən 65 nəfəri ali təhsilli, 298 nəfəri orta ixtisas təhsillidir. Onlardan 84 nəfəri xarici vətəndaşdır. Peşə təhsilinə müraciət edənlərdən 1254 nəfəri isə cəzaçəkmə müəssisəsində məhkumdur. 2026-cı il üçün müəyyən edilmiş hədəflərə əsasən peşə təhsilinə qəbul olunan tələbələrin sayının 28140 nəfərə, eləcə də yüksək texniki peşə təhsili ilə əhatə olunan tələbələrin sayının 10000 nəfərə çatdırılması planlaşdırılır.

*Yeni peşə təhsili müəssisələri*

"Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2026-2030-cu illər ərzində müasir standartlara cavab verən 21 peşə təhsili müəssisəsinin tikintisi və 2 peşə təhsili müəssisəsinin əsaslı təmirinin aparılması nəzərdə tutulur.

*Yüksək texniki peşə təhsili*

2025-ci ildə yüksək texniki peşə təhsili səviyyəsində həyata keçirilən qəbul prosesində 2 590 nəfər tələbə adını qazanıb. 2022-2025-ci illər üzrə yüksək texniki peşə təhsilinə cəlb olunanların sayı 7117 nəfər təşkil edir. 2026-cı il üçün müəyyən edilmiş hədəflərə əsasən yüksək texniki peşə təhsili ilə əhatə olunan tələbələrin sayının 10000 nəfərə yüksəldilməsi planlaşdırılır.

*Dual peşə təhsili proqramı*

2025-2026-cı tədris ilində dual peşə təhsili proqramına ümumilikdə 1704 nəfər qəbul olunub. Onlardan 1019 nəfəri kişi, 658 nəfəri qadın olub.

*Rəhbər və pedaqoji heyətin işə qəbulu*

Peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbulu prosesində 4751 namizəd qeydiyyatdan keçib. Onlardan 1920 nəfəri test mərhələsinə buraxılıb, 754 nəfər isə müsahibəyə keçib. Ümumilikdə 274 müəllim işə qəbul olunub. Direktor və direktor müavinlərinin işə qəbulu müsabiqəsində 21 nəfər uğur qazanaraq işlə təmin edilib.

**Peşə təlimləri**

*Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilmiş təlimlər*

İl ərzində 975 nəfəri əhatə edən qısamüddətli, 350 nəfəri əhatə edən ixtisasartırma təlimləri keçirilib. Təlimlər ümumilikdə 42 ixtisas üzrə 12 müəssisədə həyata keçirilib. **Bundan başqa, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində** vətəndaşların peşə bacarıqlarının artırılması və əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq qısa müddətdə ixtisaslı kadrların hazırlanması məqsədilə də təlimlər təşkil olunub. Sözügedən təlimlər 42 ixtisas üzrə 19 müəssisədə təşkil olunub.

*Təhsil proqramları*

2025-ci il üçün ümumilikdə 17 peşə təhsil proqramı hazırlanıb. Proqramlardan 10-u yeni ixtisas üzrə olub, 7-si isə yenilənib. Yeni ixtisasların tətbiqi əmək bazarının aktual ehtiyaclarını qarşılamağa xidmət edir. Bu, tədris prosesinin daha çevik və məqsədyönlü təşkilinə imkan yaradır. Bu proqramlar müasir tələblərə uyğunlaşdırılıb və təhsil prosesinin keyfiyyətinin artırılmasına istiqamətləndirilib. Hazırlanmış proqramlar müxtəlif sahələr üzrə peşə hazırlığının sistemli aparılmasını təmin edir. Proqramlar tikinti, sənaye, kənd təsərrüfatı, ticarət və xidmət, informasiya texnologiyalarını əhatə edir.

*Dərsliklərin çapı və paylanması*

2025-ci il ərzində 72 peşə ixtisas dərsliyi hazırlanıb və ümumilikdə 35000 nüsxə dərslik çap olunub. Dərsliklərin məzmunu tədris ehtiyaclarına uyğun olaraq sistemləşdirilib və istifadəyə hazır vəziyyətə gətirilib. Yerli dərsliklərin 10000, tərcümə edilmiş dərsliklərin isə 25000 nüsxə tirajı təhsil müəssisələrinin dərslik təminatını tam şəkildə əhatə edir. Dərsliklərin 38-i yerli mütəxəssislər, 34-ü isə beynəlxalq mənbələr əsasında tərtib edilib. Bu balans həm yerli reallıqların, həm də beynəlxalq təcrübənin nəzərə alınmasına imkan verir. Dərsliklər tikinti, sənaye, kənd təsərrüfatı, ticarət və xidmət, informasiya texnologiyalarını əhatə edir.

## Ali və orta ixtisas təhsili

*Ali təhsil*

Bakalavriat səviyyəsi üzrə faktiki tələbə qəbulu son illərdə davamlı artım dinamikası nümayiş etdirib. Belə ki, son dörd il ərzində bakalavriat səviyyəsində faktiki qəbul 18% artıb. 2025/2026-cı tədris ilində bu təhsil səviyyəsi üzrə 63.025 plan yerindən 60860 nəfər ali təhsil müəssisələrinə qəbul olunub ki, bu da plan yerlərinin 96,6%-nin faktiki olaraq doldurulduğunu göstərir. Qəbul olunan tələbələrin əhəmiyyətli hissəsi dövlət sifarişi əsasında (29962 nəfər) təhsil almaq hüququ qazanıb.

**2025-2026-cı tədris ili üzrə isə qiyabi təhsilalma formasında** cəmi 2.385 yer proqnozlaşdırılıb ki, bu da 2023/2024-cü tədris ili ilə müqayisədə 1.387 yer və ya 36,8% azalma deməkdir. Bu azalma ölkədə ali təhsil sistemində aparılan optimallaşdırma və keyfiyyət yönümlü islahatların tərkib hissəsidir. Əsas (baza ali) tibb təhsili səviyyəsində isə faktiki qəbul xüsusilə yüksək olub. 2025/2026-cı tədris ilində 1.182 plan yerinin 1.182-si doldurulub, faktiki qəbul 100% səviyyəsində təmin edilib. Bu təhsil səviyyəsində qəbul olunan tələbələrin 1.127 nəfəri (95%-dən çoxu) dövlət sifarişi əsasında təhsil almaq hüququ əldə edib.

**Magistratura səviyyəsində** faktiki tələbə qəbulu son illərdə artım dinamikası nümayiş etdirib. Belə ki, 2021/2022-ci tədris ilində 10.484 nəfər olan faktiki qəbul 2025/2026-cı tədris ilində 14.335 nəfərə çatıb, bu da 3.851 nəfər və ya təxminən 37% artım deməkdir. 2025/2026-cı tədris ilində magistratura səviyyəsi üzrə 17.558 plan yerindən 14.335 nəfər ali təhsil müəssisələrinə qəbul olunub ki, bu da plan göstəricisinin 81,7%-nin faktiki olaraq təmin edildiyini göstərir. 2025/2026-cı tədris ilində magistratura səviyyəsində 7.094 nəfər (40,4%) dövlət sifarişi əsasında təhsil almaq hüququ qazanıb.

**2025-2026-cı tədris ilində fəlsəfə doktoru proqramı üzrə** ümumilikdə 1.177 qəbul yeri proqnozlaşdırılıb. Bu yerlərdən 744-ü (63%) ali təhsil müəssisələrində, 433-ü (37%) isə elmi müəssisələrdə nəzərdə tutulub. Ali təhsil müəssisələrində planlaşdırılan qəbul yerləri dövlət sifarişi əsasında, elmi müəssisələr üzrə planlaşdırılan qəbul yerləri isə dövlət büdcəsi hesabına və ödənişli əsaslarla nəzərdə tutulub. Planlaşdırılan qəbul yerlərinin 64.3% və ya 757 yer dolub. Qəbul olanların 484 nəfəri (64%) ali təhsil müəssisələrinə, 273 nəfəri (36%) isə elmi müəssisələrə qəbul olub. 2025-2026-cı tədris ili üzrə fəlsəfə doktoru proqramı çərçivəsində dissertanturaya tələbə qəbulu dayandırılıb, eyni zamanda elmlər doktoru proqramı üzrə də tələbə qəbulu planlaşdırılmayıb.

### Orta ixtisas təhsili

2025-2026-cı tədris ili üzrə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planı layihəsində bəzi optimallaşdırma prosesləri həyata keçirilib, bir sıra istiqamətlər üzrə müəyyən yanaşmalar ortaya qoyulub və buna uyğun olaraq tələbə qəbulu plan layihəsi hazırlanıb. Hazırlanmış layihədə orta ixtisas təhsili pilləsi üzrə tələbə qəbulu planı öncəki illə (24.659 yer) müqayisədə 2.4% (584 yer) artırılaraq 25.243 yerə çatdırılıb. Proqnozlaşdırılan tələbə qəbulu yerlərinin 8.154-ü (32.3%) ümumi orta təhsil bazasından (9 illik bazadan), 17.089 yer (67.7%) isə tam orta təhsil bazasından (11 illik bazadan) təklif edilir.

### Qarabağ Universitetinin Klinikası

Sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikası binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışı olub. Bu tədris ilindən Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayıb. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib, binada 10 dərs və 9 auditoriya otağı, 3 laboratoriya, iş və imtahan otaqları, istirahət zonaları, kitabxana, brifinq zalları yaradılıb.

**Biznes və iqtisadiyyat fakültəsi.** Dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışı olub. Tədris binasında 40 auditoriya, kompüter laboratoriyaları, kitabxana, oxu və akt zalları, iclas, inzibati və professor-müəllim otaqları mövcuddur.

**Mühəndislik fakültəsi.** Dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməli qoyulub. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq.

### İtaliya-Azərbaycan Universiteti

Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı olub. İtaliya-Azərbaycan Universiteti binalarının təməli 2022-ci ildə hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə Bakıda qoyulub. Hazırda burada tədris olunan 8 bakalavr və 2 magistr proqramında 538 tələbə bakalavr, 102-si isə magistr səviyyəsində təhsil alır. İxtisaslardan 3-ü ikili diplom proqramıdır. Tədris proqramları elektrik və elektronika mühəndisliyi, memarlıq, interyer və kommunikasiya dizaynı, şəhərsalma, kənd təsərrüfatı və qida texnologiyaları, heyvandarlıq və müxtəlif menecment ixtisaslarını əhatə edir. Bakalavr və magistr proqramlarından əlavə, peşəkarlar üçün mütəmadi ixtisasartırma və sertifikat proqramları da həyata keçirilir.

### Türkiyə-Azərbaycan Universiteti

Türkiyə-Azərbaycan Universitetində tələbələrin təcrübi biliklərinin təmin edilməsi məqsədilə 9 tədris laboratoriyası, o cümlədən 1 fizika, 4 kimya, 1 mikrobiologiya və 3 kompüter laboratoriyası qurulub. Fizika və kimya laboratoriyaları 2024-cü ildən fəaliyyət göstərir. Mikrobiologiya laboratoriyası isə 2025-ci ildən fəaliyyətə başlayıb. Növbəti ildə intstrumental analiz və qida texnologiyası laboratoriyalarının da fəaliyyətə başlaması planlaşdırılır. Qeyd edək ki, 2025-2026-cı tədris ilində Türkiyə-Azərbaycan Universitetinin kompüter mühəndisliyi ixtisasına 60, qida mühəndisliyi ixtisasına 12, sənaye mühəndisliyi ixtisasına 22 tələbə qəbul olunub.

### Yeni ali təhsil proqramları

Nazirlər Kabinetinin müvafiq qərarları ilə ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatları yeni redaksiyada təsdiq edilib. Yeni təsnifatların qüvvəyə minməsi müasir tələblərə və əmək bazarının ehtiyaclarına uyğun, səriştə əsaslı və tələbəyönümlü təhsil proqramlarının hazırlanmasını zəruri edib. Bu məqsədlə Elm və Təhsil Nazirliyi tərəfindən yeni təsnifata uyğun olaraq ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili və magistratura səviyyələri üzrə təhsil proqramlarının hazırlanması üçün komissiya yaradılıb. Komissiyanın tərkibində 9 istiqamət üzrə işçi qrupları formalaşdırılıb, hər bir işçi qrupuna ali təhsil müəssisələrinin rəhbərləri və əmək bazarı nümayəndələri həmsədrlik edib. İşçi qrupları tərəfindən magistratura səviyyəsində 10 ixtisas qrupu üzrə ümumilikdə 129 ixtisas və 925 ixtisaslaşma ilə bağlı təkliflər hazırlanıb. Həmin işçi qrupları tərəfindən ali təhsilin bakalavriat səviyyəsinin təsnifatına yeni əlavə edilmiş "Davamlı inkişaf", "Data analitikası" və "Fizioterapiya" ixtisasları, habelə magistratura səviyyəsinin təsnifatına daxil olan 124 ixtisas üzrə (5 ixtisas üzrə tələbə qəbulu aparılmadığına görə proqram hazırlanmayıb) məzunun peşə səriştələrini və proqramların təlim nəticələrini özündə əks etdirən təhsil proqramları hazırlanıb.

# Elm və təhsil sahəsindəki islahatlar universitetlər üçün də yeni imkanlar yaradır



"Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi proqram xarakterli müsahibə hər birimizi qürurlandırdı. Qalib Liderimizin beynəlxalq münasibətlər, xarici siyasət, strateji tərəfdaşlıqlar, sülh və təhlükəsizlik, iqtisadi inkişaf, xarici investisiyalar, enerji, nəqliyyat və logistika, sosial rifah, azad olunmuş ərazilərdə bərpa və quruculuq prosesləri, idarəetmə modeli, dilimizin qorunması, müasir texnologiyalar, elm, təhsil və kadr islahatları, mədəniyyət və turizmlə bağlı səsləndirdiyi konseptual fikirlər məhz Azərbaycanın yaratdığı yeni reallıqların və strateji vizyonun əsl mahiyyətini ortaya qoymuş oldu".

Bunu Qarabağ Universitetinin rektoru Şahin Bayramov söyləyib.

Rektor deyib: "Sülh, tərəqqi və bilik cəmiyyəti kimi prioritetləri vurğulayan dövlət başçısı iqtisadi və siyasi dayanıqlılığın təmin olunması, insan kapitalının və innovasiya infrastrukturunun davamlı inkişaf etdirilməsi, gənc nəslin təhsil və elmi potensialının gücləndirilməsinin vacibliyinə diqqət çəkib, uzunmüddətli perspektivlərə hədəflənən sosial rifah və dayanıqlı inkişaf strategiyası çərçivəsində atılan addımlardan bəhs edib.

Real faktlara və kompleks təhlilə əsaslanan tarixi müsahibədə davamlı inkişafın təmin olunmasında elm və təhsilin uzlaşdırılmış inkişafının müstəsna rolu xüsusi qeyd edilib, cəmiyyətin iqtisadi tərəqqisi və sosial rifahında elmin, təhsilin və biliyin rolu ön plana çəkilib. Bu, Prezidentin kadr islahatı, elm, təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi ilə bağlı səsləndirdiyi fikirlərdə öz əksini aydın şəkildə tapıb. Elm və təhsil sahəsindəki islahatların labüdlüyünü bildirən Prezident iqtisadi resurslardan daha çox, insan kapitalının, təhsilin və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə diqqətin artırılmasını vacib hesab edib. Fikrimizcə, aparılan islahatlar universitetlər üçün də yeni imkanlar yaradır, gənc və istedadlı kadrların irəli çəkilməsi, elmi və pedaqoji potensialın artırılması istiqamətində aydın prioritetləri ortaya qoyur".

Ş.Bayramov bildirib ki, son 20 il ərzində ölkəmizdə 10 yeni ali təhsil müəssisəsinin, o cümlədən Qarabağ Universitetinin yaradılması ali təhsilə verilən strateji önəmin, göstərilən yüksək diqqət və qayğının bariz təzahürüdür. Ali təhsil məkanını genişləndirməklə yanaşı, təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığının artırılmasına xidmət edən belə strateji addımlar Azərbaycan cəmiyyətinin uzunmüddətli inkişafını təmin etmək, insan kapitalını gücləndirmək və gələcək nəsillərin bilik səviyyəsini yüksəltmək baxımından olduqca əhəmiyyətlidir.

"Prezident İlham Əliyev tərəfindən yaradılan və sürətlə inkişaf etdirilən Qarabağ Universiteti hazırda dövlətimizin elm və təhsil siyasətinin strateji məqsədləri və prioritet hədəfləri ilə uzlaşdırılmış ali təhsil ocağı kimi fəaliyyətini davam etdirməyə səy göstərir. Universitetimiz fəaliyyətində keyfiyyətli təhsil, nəticəyönümlü elmi fəaliyyət, tələbə əsaslı akademik mühit, gənc və istedadlı kadrların Qarabağa cəlb edilməsi və digər prinsipləri əsas götürür. Əminik ki, təhsil sahəsindəki islahatların uğurla icrası tələbələrimizin, gənc alim və müəllim heyətimizin potensialının əhəmiyyətli dərəcədə güclənməsinə imkan yaradacaq, ölkəmizin hərtərəfli və dayanıqlı inkişafına mühüm töhfələr verəcək", - deyə rektor qeyd edib.

# Cənab Prezident təhsildə struktur və idarəetmə islahatlarının məntiqini əsaslandırır



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində elm və təhsil sahəsində aparılan islahatlarla bağlı ictimaiyyəti daim maraqlandıran bir sıra məqamlara aydınlıq gətirib. Dövlət başçısı müsahibəsində elm və təhsil sahəsində mövcud vəziyyəti geniş təhlil edib. "Azərbaycan müəllimi"nə açıqlamasında ADA Universitetinin müəllimi Məcid Bayramlı dövlət başçısının səsləndirdiyi fikirləri şərh edib:

"Cənab Prezidentin elm və təhsillə bağlı fikirləri əslində çox dərin və strukturlu yanaşmanı əks etdirir. Burada təhsilin bu günü və gələcəyi, eləcə də ümumi təhsil siyasəti baxımından çıxarıla bilən bir sıra mühüm nəticələr var. İlk növbədə, cənab Prezident təhsildə struktur və idarəetmə islahatlarının məntiqini əsaslandırır, elm və təhsilin vahid mərkəzdən idarə olunmasının məqsədinin elmin dövlət siyasətindən kənarda qalmamasına xidmət etdiyini açıq şəkildə ifadə edir. Burada inteqrasiya modeli ön plana çəkilir və elmin ali təhsil müəssisələri ilə sıx əlaqədə, yaxud onların nəzdində inkişaf etdirilməsinin beynəlxalq qabaqcıl təcrübəyə uyğun olduğu vurğulanır. Xüsusilə tədqiqat universitetləri modelinə keçid və elmi-tədqiqat institutlarının birləşdirilərək daha çevik strukturun formalaşdırılması mövcud islahatların əsas prioritetləri kimi təqdim olunur. Bu yanaşma elm və təhsil sahəsində aparılan islahatların fundamental prinsiplərini aydın şəkildə ortaya qoyur".

M.Bayramov qeyd edib ki, ölkə başçısının müsahibəsində digər mühüm məsələyə - kadr siyasəti və keyfiyyət meyarları məsələsinə toxunulur. Müasir baxışlı və gənc kadrların irəli çəkilməsi islahatların əsas hərəkətverici qüvvəsi kimi göstərilir. Elmin inkişafının qiymətləndirilməsində beynəlxalq standartların əsas götürülməsi zərurəti xüsusi vurğulanır. "Burada əsas mesaj ondan ibarətdir ki, elmi fəaliyyətin effektivliyi sadəcə məşğulluq prinsipi ilə deyil, nüfuzlu beynəlxalq jurnallarda nəşrlər, istinad göstəriciləri və elmi çəki kimi obyektiv meyarlarla ölçülməlidir. Bu yanaşma ölkə elminin beynəlxalq rəqabət mühitinə inteqrasiyasının vacibliyini açıq şəkildə ortaya qoyur.

Cənab Prezident eyni zamanda elm və təhsilin iqtisadi modelin transformasiyasında oynadığı rolu xüsusi qeyd edir. Resurs asılılığından çıxışın strateji hədəf olduğu və real inkişafın neft və qazdan deyil, zəka və texnologiyadan qaynaqlandığı açıq şəkildə ifadə olunur. Texnoloji inkişaf və müstəqillik baxımından ölkənin texnologiyanı yalnız idxal edən deyil, onu yaradan, beyin mərkəzlərinə sahib bir ölkəyə çevrilməsi üçün elmin əsas baza olduğu vurğulanır".

Müsahibimiz qeyd edir ki, ölkə başçısının müsahibəsində gələcəyə baxış və məsuliyyət məsələsi ön plana çəkilir. İslahatların qaçılmaz olduğu və bu dəyişikliklərin aparılmamasının ölkənin ümumi inkişafını məhdudlaşdıra biləcəyi açıq şəkildə bildirilir.

"Bu baxımdan islahatlar seçim deyil, zərurət kimi təqdim olunur. Yekunda elm və ali təhsil müəssisələrinə ölkənin gələcəyini formalaşdıran strateji mərkəzlər kimi yanaşmanın vacibliyi qeyd edilir və bu qurumların üzərinə düşən məsuliyyət aydın şəkildə müəyyən olunur.

Ümumilikdə bu yanaşma düşünülmüş və məqsədyönlü siyasətin həyata keçirildiyini göstərir. Hazırda islahat mərhələsində olduğumuz aydındır. Gözlənti ondan ibarətdir ki, həyata keçirilən islahatlar nəticəsində elm və ali təhsil müəssisələri yalnız kadr hazırlayan strukturlar deyil, tədqiqat universitetləri formatında fəaliyyət göstərən, siyasət, iqtisadiyyat və texnoloji inkişaf üçün bilik istehsal edən əsas beyin mərkəzlərinə çevriləcək və iqtisadiyyatla, xüsusilə də özəl sektorla qarşılıqlı əlaqə əsasında cəmiyyətin uzunmüddətli tələblərini qabaqcadan müəyyən edərək strateji qərarların formalaşmasına töhfə verəcək".

**Oruc MUSTAFAYEV**

# İstedadlı gənclər Azərbaycanın dayanıqlı inkişafını təmin edəcək



"Bizim əsas məqsədimiz gənclərin intellektual və yaradıcı potensialını tam realizə etməkdir. İnanırıq ki, istedadlı gənclər cəmiyyətin inkişafı üçün yeni ideyalar gətirəcək, texnoloji və iqtisadi yenilikləri sürətləndirəcəklər. Gənclərin motivasiyası və təşəbbüskarlığı onların həm milli, həm də qlobal səviyyədə rəqabətqabiliyyətini artıracaq". Bu fikirləri "Azərbaycan müəllimi"nə açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, filologiya elmləri doktoru Elnarə Akimova bildirib.

Deputat qeyd edib ki, gənclərin təşviqi yalnız təqaüdlər və mükafatlarla məhdudlaşmır, həm də onlar real layihələrdə, strateji qərarvermə prosesində iştirak etməyə cəlb edilir: "Prezident İlham Əliyevin müsahibəsində Azərbaycanın inkişaf strategiyasında gənclərin təşviqi və onların dövlət və özəl sektorlarda iştirakının xüsusi önəm daşıdığı vurğulandı. Dövlət başçısı bildirdi ki, istedadlı gənclərin dəstəklənməsi yalnız şəxsi inkişaf perspektivi yaratmaqla kifayətlənmir, eyni zamanda Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişafının əsas dayaqlarından biridir.

Gənclərin dövlət strukturlarında, eləcə də özəl sektorda iştirakını təmin etmək üçün xüsusi proqramlar həyata keçiririk. Dövlət və özəl sektor əməkdaşlığı, mentorluq proqramları və startap inkubatorları bu potensialın gerçəkləşməsi üçün əsas mexanizmlərdir. Biz gənclərin yalnız sosial cəhətdən aktiv olmasını deyil, həm də ölkənin strateji hədəflərinə töhfə verməsini istəyirik. Onların təşviqi gələcək nəsillərin inkişafına dəstək verəcək. Bu yanaşma Azərbaycanın davamlı və inklüziv inkişafının təməlidir".

E.Akimova həmçinin qeyd edib ki, təhsil, texnologiya və sahibkarlıq sahələrində gənclərin iştirakı dövlətin strateji prioritetlərinə uyğunlaşdırılır və ölkənin rəqabətqabiliyyətli gələcəyinə xidmət edir: "Bu mövzuya dair rəsmi baxış yalnız gənclərin təşviqi ilə məhdudlaşmır. Dövlət proqramları çərçivəsində gənclərin real layihələrdə iştirakı təmin edilir, onların praktiki bacarıqları artırılır və innovativ təşəbbüsləri üçün şərait yaradılır.

İstedadlı və motivasiyalı gənclərin önə çəkilməsi cəmiyyətin intellektual resurslarını artırır, yeni ideya və təşəbbüslərin meydana çıxmasına təkan verir və sosial həmrəyliyi gücləndirir. Onlar həm dövlət, həm də özəl sektorlarda innovativ təşəbbüslərlə çıxış edə bilir, startaplar, texnologiya layihələri ilə iqtisadi və texnoloji inkişafı sürətləndirirlər. Bu, gənclərin yalnız şəxsi uğuruna deyil, həm də milli rifaha, innovativ və dayanıqlı iqtisadi modelin qurulmasına xidmət edir".

Millət vəkilinin sözlərinə görə, gənclərin təşviq mexanizmləri geniş və çoxşaxəlidir: "Təqaüd, qrant və mükafat sistemləri gənclərin elmi və texnoloji fəaliyyətini dəstəkləyir. Mentorluq proqramları və təcrübə imkanları onların dövlət və özəl sektorlarda praktiki bacarıqlarını artırır. Startap inkubatorları, innovasiya mərkəzləri və texnologiya parkları gənclərin yaradıcı ideyalarını gerçəkləşdirməyə şərait yaradır. Bu mexanizmlər gənclərin cəmiyyətə töhfəsini artırır, onların liderlik qabiliyyətlərini inkişaf etdirir və uzunmüddətli inkişaf perspektivi üçün vacib resurs təmin edir.

Prezident İlham Əliyevin vurğuladığı istiqamət həmçinin sosial inklüzivlik prinsiplərinə uyğun gəlir. Gənclərin iştirak etdiyi layihələrdə müxtəlif sosial qrupların təmsilçiliyi təmin edilir, qadınlar və az təmsil olunmuş icmalar innovativ fəaliyyətlərə cəlb olunur. Bu yanaşma yalnız fərdi təşəbbüsləri deyil, həm də milli inteqrasiya və sosial harmoniyanı gücləndirir, ölkənin innovasiya ekosistemini möhkəmləndirir, beynəlxalq rəqabətqabiliyyətini artırır və dövlətin strateji prioritetlərinin uzunmüddətli icrasına dəstək verir.

Nəticə etibarilə, gənclərin təşviqi yalnız şəxsi və iqtisadi inkişafla məhdudlaşmır. Bu, Azərbaycanın gələcək inkişaf strategiyasının mərkəzi elementi, dövlətin strateji resurslarının səmərəli istifadəsi və cəmiyyətin intellektual potensialının gücləndirilməsidir. İstedadlı gənclərin dəstəklənməsi və onların dövlət və özəl sektorlarda iştirakı uzunmüddətli perspektivdə Azərbaycanın dayanıqlı inkişafını, innovativ iqtisadiyyatını və sosial həmrəyliyini təmin edəcək. Bu yanaşma həm dövlət siyasəti, həm də cəmiyyətin inkişafı baxımından Azərbaycanın yeni dövr üçün əsas dayağıdır", - deyə deputat bildirib.

**Mərziyyə KAZIMZADƏ**

## "Azərbaycan məktəbləri"

# Dilimizi gələcəyə ötürən körpü



Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan dilinin qorunması məsələsini xüsusi olaraq gündəmə gətirməsi cəmiyyətin bütün təbəqələri üçün ciddi mesaj xarakteri daşıyır. Dövlət başçısı ana dilinin təkcə ünsiyyət vasitəsi deyil, milli kimliyin, mənəvi varlığın və dövlətçiliyin əsas sütunlarından biri olduğunu vurğulayaraq bildirdi ki, dil itirilərsə, zamanla milli kimlik də, dövlətçilik düşüncəsi də sarsıla bilər. Bu fikirlər müasir qloballaşma şəraitində Azərbaycan dilinin qorunmasının nə qədər həssas və vacib məsələ olduğunu bir daha ön plana çıxartdı.

Prezidentin müsahibəsində xüsusi diqqətçəkən məqamlardan biri də xarici kəlmələrin dilimizə nəzarətsiz şəkildə daxil olması və bunun milli şüura tədricən mənfi təsir göstərməsi ilə bağlı idi. Dövlət başçısı açıq şəkildə qeyd etdi ki, Azərbaycan dilinin saflığının qorunması hər bir vətəndaşın borcudur və bu məsuliyyət yalnız ölkə daxilində deyil, dünya üzrə yaşayan milyonlarla azərbaycanlını da əhatə edir. Çünki bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır və onların böyük bir hissəsi ana vətəndən kənarda formalaşan sosial-mədəni mühitin təsiri altındadır.

Məhz bu reallıq xarici ölkələrdə Azərbaycan dilinin tədrisi və təbliği məsələsini strateji əhəmiyyətə malik mövzu olaraq gündəmə gətirir. Xüsusilə xaricdə yaşayan azərbaycanlı ailələrin övladlarının ana dilini unutmaq təhlükəsi, üçüncü və dördüncü nəsillər arasında dil biliklərinin zəifləməsi dövlət başçısının da narahatlıqla diqqətə çatdırdığı məsələlərdəndir. Bu baxımdan xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan dili məktəbləri, həftəsonu kursları, mədəniyyət mərkəzləri və son illərdə yaradılan onlayn təhsil platformaları milli-mənəvi irsin qorunmasında mühüm rol oynayır.

Bəs görəsən, hazırda xarici ölkələrdə Azərbaycan dilinin yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində nə kimi işlər görülür? Hansı ölkələrdə Azərbaycan dili məktəbləri fəaliyyət göstərir və bu təhsil ocaqları qarşıya qoyulan məqsədləri nə dərəcədə reallaşdıra bilir?

### "Azərbaycan məktəbləri" - dilimizin, tariximizin tədrisi, mədəniyyətimizin təbliği

Bununla bağlı "Azərbaycan müəllimi"nə açıqlamasında Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Vəsilə Vahidqızı qeyd edib ki, 2019-cu ildən başlayaraq müxtəlif xarici ölkələrdə həftəsonu "Azərbaycan məktəbləri" fəaliyyətə başlayıb. Həftəsonu məktəbləri Avropanın bir sıra ölkələrində, ABŞ-də, Kanadada, Böyük Britaniyada, Misirdə, Moldovada və s. fəaliyyət göstərir.

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Zəfər Qurultayında çıxışı zamanı səsləndirdiyi tövsiyələr rəhbər tutularaq həftəsonu məktəblərinin sayı artırılıb və əhatə dairəsi daha da genişləndirilib.

Xaricdəki hər bir həftəsonu "Azərbaycan məktəbi"ndə Azərbaycan dili, Azərbaycan tarixinin tədrisi və Azərbaycan mədəniyyətinin təbliği mütləq şəkildə həyata keçirilir. Məktəblərdə həmçinin xarici dillər, musiqi, rəsm, gimnastika və digər idman növləri üzrə dərslər tədris olunur. Eyni zamanda bu təhsil ocaqlarında məktəbəqədər, dünyagörüşü, ali məktəblərə hazırlıq kursları, dram dərnəkləri var. Həftəsonu məktəblərində mütəmadi olaraq müxtəlif istiqamətlər üzrə yarış və müsabiqələr təşkil edilir.

Şöbə müdiri bildirir ki, bəzi ölkələrdə həftəsonu məktəblərindəki tədrislə bağlı hədəflər dəyişir: "Məsələn, Gürcüstanda yaşayan azərbaycanlıların ali məktəblərə qəbulu üçün gürcü dili, ingilis dili, riyaziyyat və məntiq xüsusi əhəmiyyət daşıdığına görə ali məktəblərə hazırlıq kurslarında və ümumilikdə bütün kurslarda qeyd olunan fənlər xüsusi tədris olunur. Hazırda Gürcüstanda yaşayan 1651 azərbaycanlı uşaq və gənc həftəsonu məktəblərinin və kursların xidmətindən təmənnasız istifadə edir.

### 24 ölkədə 90-dan çox həftəsonu məktəbi

Xarici ölkələrdəki həftəsonu "Azərbaycan məktəbləri"nin dərsliklərlə təminatı məsələsinə toxunan Vəsilə Vahidqızı məhz bu məktəblər üçün "Azərbaycan dili" kitabının hazırlanaraq çap olunduğunu və məktəblərə pulsuz paylanıldığını söyləyir. Həmçinin Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün "A grammar of contemporary Azerbaijani" ("Müasir Azərbaycan dilinin qrammatikası") adlı dərs vəsaiti hazırlanaraq çap olunub: "Hazırda 24 ölkədə 90-dan çox həftəsonu məktəbi var və xarici ölkələrdəki həftəsonu Azərbaycan məktəblərinin 31-i xaricdəki "Azərbaycan Evləri"ndə, digərləri isə diaspor təşkilatlarının, mədəniyyət mərkəzlərinin nəzdində və müstəqil şəkildə fəaliyyət göstərir. Diasporla İş üzrə Dövlət Komitəsi xarici ölkələrdəki hər bir həftəsonu "Azərbaycan məktəbi"ni dərs və tədris üçün lazım olan bütün vəsaitlərlə təmin edir. Xaricdə yaşayan hər bir soydaşımız və ölkəmizi sevən əcnəbilər "Azərbaycan Evləri"nin və həftəsonu məktəblərinin xidmətlərindən təmənnasız istifadə edir".

### Onlayn təhsil platforması yaradılıb

Şöbə müdirinin sözlərinə görə, azərbaycanlıların məskunlaşdıqları ölkələrin bəzi regionlarında onların kompakt yaşamamaları Azərbaycan dili və digər fənlərin tədrisinin əyani aparılmasına imkan vermir. Bunu nəzərə alaraq, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə xaricdə yaşayan azərbaycanlılar üçün məsafədən təhsil məqsədilə *www.millidilli.eu* milli dilli onlayn təhsil platforması yaradılıb. Platforma dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı uşaqları və müəllimləri vahid onlayn tədris proqramı ətrafında birləşdirir. Ümumilikdə platforma təlimində bu günə qədər 55 müəllim iştirak edib.

Vəsilə Vahidqızı sonda cari ildə yeni onlayn və əyani həftəsonu məktəblərinin açılmasının planlaşdırıldığını bildirib.

**Samirə KƏRİMOVA**

# Şərəfli alim ömrü

## Fərrux RÜSTƏMOV – 65



**Ömrünün 65 ilini arxada qoyan Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovu pedaqoji ictimaiyyətimizə tanıtmağa xüsusi ehtiyac olmasa da, onun qısa bioqrafiyasını – ömrünün yaddaqalan anlarını, xüsusən elmi bioqrafiyasını xatırlamaq yaxşı olar.**

### Göyçənin Cil kəndindən başlayan ömür yolu

Fərrux Rüstəmov 1 yanvar 1961-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Cil kəndində anadan olub. 1968-1978-ci illərdə Cil kənd orta məktəbində, 1978-1982-ci illərdə V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU) Pedaqoji fakültəsində təhsil alıb. Orta məktəbi “Tərifnamə”, ali məktəbi fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində fakültə Əlaçılar şurasının və Tələbə Elmi Cəmiyyətinin sədri olub, “Əla təhsilə görə”, “Əla təhsilə və ictimai işə görə” SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin, ÜİLKGİ-nin döş nişanları, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin I-II dərəcəli diplomları (tələbə elmi tədqiqat işinə görə), ÜİLKGİ-nin və institut rektorluğunun Fəxri Fərmanları ilə təltif olunub.

### Müəllim, direktor, aspirant, professor

1982-1985-ci illərdə Quba rayonunun Rəngidar kənd səkkizillik məktəbində müəllim və məktəb direktoru işləyib. 1985-ci ildə V.İ.Lenin adına ADPİ-nin pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə əyani aspiranturasına daxil olub. 1985-1987-ci illərdə Qazaxıstanın Leninski şəhərində sovet ordusu sıralarında həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra aspirantura təhsilini davam etdirib. “Azərbaycanda sovet pedaqoji elminin inkişafı (1961-1981-ci illər)” mövzusunda namizədlik (1989), “Azərbaycanda pedaqoji elmin inkişaf yolları (1920-1991-ci illər)” mövzusunda doktorluq (2003) dissertasiyalarını müdafiə edib.

1988-ci ildə SSRİ Elmlər Akademiyasının Sovet Sosioloqlar Assosiasiyasının üzvü seçilib. Pedaqoji Universitetin Şagirdlərin peşəyönümü elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi (1990-1991), Ümumi pedaqogika kafedrasında müəllim (1992-1995), dosent (1996-2004), professor (2004-2006) vəzifələrində çalışıb.

### Dekan və kafedra müdiri

Şagirdlərin peşəyönümü elmi-tədqiqat laboratoriyasına (1996-2000) və Dədə Qorqud ETL-in pedaqogika, psixologiya, fəlsəfə bölməsinə (2000-2004), Bakı Qızlar Seminariyasının (Bakı Qızlar Universitetinin) Pedaqogika kafedrasına (1998-2006), ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasına (2007-2011) və Pedaqoji təhsilin problemləri elmi-tədqiqat laboratoriyasına (2008-2011) rəhbərlik edib. 2006-cı ildən İbtidai təhsilin pedaqogikası kafedrasının professoru kimi fəaliyyət göstərir. 2007-2022-ci illərdə ADPU-nun Pedaqoji fakültəsinin (indiki İbtidai təhsil fakültəsinin) dekanı, fakültə Elmi Şurasının sədri, Universitet Elmi Şurasının üzvü olub.

2022-ci ildən ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, Universitet Elmi Şurasının üzvüdür. Təşəbbüsü ilə İbtidai təhsil fakültəsinin bakalavriat səviyyəsində “İbtidai sinif müəllimliyi” ixtisasının ingilis bölməsi, magistratura səviyyəsində Təhsildə monitorinq və qiymətləndirmə və Sosial pedaqogika ixtisasları yaradılıb, “Təhsilin əsasları” auditoriyası açılıb. Fakültənin ilk dekanı dosent İ.Vəlixanlının, professor M.Muradxanovun 100 illik və fakültənin 50 illik yubileyləri keçirilib.

### Elmi yaradıcılığı

50-dən çox monoqrafiya, kitab və kitabçası, 40 tədris proqramı, 200-dən çox elmi məqaləsi, 40 tezisi, 250-dən artıq elmi-pedaqoji və publisistik qəzet yazısı işıq üzü görüb. Kitablarından biri (“Şərqdə təlim-tərbiyə”) Tehranda, biri (“Azərbaycanda təhsilin inkişaf istiqamətləri”) Moskvada nəşr olunub. 20 kitabın tərtibçisi, 100-dən çox kitabın elmi redaktoru və rəyçisi olub. Əsərləri Bakı, Moskva, Səmərqənd, Çeboksarı, Tehran, Təbriz, İstanbul, Astana, Sankt-Peterburq və Tbilisi şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, türk, özbək dillərində çap olunub. Yunanıstan, Albaniya, Rusiya, Finlandiya, İsveç, Norveç, Danimarka, Estoniya, İspaniya və Portuqaliyada yaşlıların təhsili ilə bağlı keçirilən beynəlxalq konfranslarda iştirak edib. Son illərdə onun yaradıcılığında yeni bir elmi istiqamət - Qərbi Azərbaycanda təhsil və pedaqoji fikir tarixinin tədqiqi və təbliği formalaşmışdır. Bununla bağlı “İrəvan Müəllimlər Seminariyası və onun məzunları” (2022), “İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları” (2024) monoqrafiyaları və silsilə məqalələri nəşr olunub.

### Elmi kadr hazırlığı

Onun elmi məsləhətçiliyi ilə 4 nəfər pedaqogika üzrə elmlər doktoru, elmi rəhbərliyi ilə 35 nəfər pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 4 nəfərin elmlər doktoru, 36 nəfərin pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin rəsmi opponenti olub.1997-ci ildən 2009-cu ilə kimi Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Təhsil Problemləri İnstitutunda və ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsil tarixi ixtisası üzrə Dissertasiya Şurasının üzvü olub. 2009-2016-cı illərdə ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi üzrə Dissertasiya Şurasının sədr müavini olub. Sədrliyi ilə 22 nəfər elmlər doktoru, 155 nəfər pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edib. Hazırda ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü, Dissertasiya Şurasının nəzdindəki seminarın sədridir. Naxçıvan Müəllimlər İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının nəzdindəki elmi seminarın üzvüdür. 1993-2016-cı illərdə Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının üzvü olub. Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının Pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası bölməsinin üzvüdür.

### Elmi jurnallarda təmsilçiliyi

“ADPU-nun Xəbərləri”, “Kurikulum”, “Azərbaycan məktəbi”, “Məktəbəqədər və ibtidai təhsil”, “Təhsildə İKT”, “Dədə Qorqud araşdırmaları”, “Media və təhsil innovasiyaları”, “Bakı Qızlar Seminariyasının Elmi Xəbərləri”, “Naxçıvan Universitetinin Elmi Xəbərləri”nin redaksiya heyətinin üzvü, “Pedaqoji tədqiqatlar” elmi məqalələr məcmuəsinin və “İbtidai təhsilin problemləri” elmi məqalələr toplusunun baş redaktorudur.

Azərbaycanda müəllim kadrları hazırlığının strategiya və konsepsiyasını hazırlayan işçi qrupunun, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununu hazırlayan işçi qrupunun, Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurasının, Dərslikləri Qiymətləndirmə Şurasının üzvü, “Həyat bilgisi” fənn kurikulumunu hazırlayan işçi komissiyasının sədri olub.



### Elmi uğurları, mükafatları, Prezident təltifləri

Fərrux Rüstəmov Azərbaycan Jurnalistlər Birliyinin üzvü, akademik Mehdi Mehdizadə, “Gənc alimlər”, “Firidun bəy Köçərli” və “Qızıl qələm” mükafatları laureatıdır. “Avropa Nəşr Mətbu evi” komissiyasının qərarı ilə “Ən yaxşı vətənpərvər tədqiqatçı alim” qızıl medalı (2009), Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” (2010) döş nişanı ilə təltif olunub. “Vektor” Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə “XXI əsr Azərbaycan ziyalıları” ADPU-da “İlin müəllimi” (2007), “İlin alimi” (2011, 2013, 2015) müsabiqələrinin qalibi olub. Təhsil Nazirliyinin, müxtəlif ali təhsil müəssisələrinin, beynəlxalq və respublika səviyyəli təhsil qurumlarının, KİV-in fəxri fərman və diplomları ilə təltif edilib.

1998-ci ildə Moskva şəhərində yerləşən Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, 2010-cu ildə isə Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə “Tərəqqi” medalına (2006), “Əməkdar elm xadimi” (2011) fəxri adına və 3-cü dərəcəli “Əmək” ordeninə, “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalına və “Azərbaycan Dövlət Pedaqoji Universiteti-100” yubiley medalına layiq görülüb.

Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, Çəmbərək rayon icmasının İdarə heyətinin üzvü, Cil kənd icmasının sədri, Qərbi Azərbaycan İcmasının nəzdindəki Elm komissiyasının üzvüdür.

### Yaradıcılığına akademik baxış

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yazırdı ki, professor Fərrux Rüstəmovun pedaqoji yaradıcılığı, elmi məktəbi, təşkilatçılıq fəaliyyəti və milli təhsil quruculuğu və pedaqoji kadr hazırlığındakı xidmətləri onu Azərbaycan pedaqoji elminin qürur duyulan şəxsiyyətlərindən birinə çevirmişdir. Akademik Hüseyn Əhmədov öz yetirməsi haqqında yazırdı: “Fərrux Rüstəmovun əsərləri Azərbaycan pedaqoji elmini zənginləşdirən elmi yaradıcılıq nümunələridir”. Professor Əjdər Ağayevin təbirincə desək, Fərrux Rüstəmovun ”Azərbaycan pedaqogikaşünaslığı” pedaqoji elmimizin bir əsrlik salnaməsidir, Azərbaycan pedaqoji elmində hadisəyə çevrilmiş bir əsərdir. Pedaqogikaşünaslığın meydana gətirilməsi məhz Fərrux Rüstəmova məxsus elmi fədakarlıq, yaradıcı xidmətdir. Fərrux Rüstəmov elmşünaslığın tərkib hissəsi kimi pedaqogikaşünaslığı yaratmış və formalaşdırmışdır. O, Azərbaycan pedaqogikaşünaslığının pioneri olaraq öndədir. Fərrux Rüstəmov mükəmməl pedaqogika tarixçisidir. O, Əhməd Seyidov, Mehdi Mehdizadə, Mərdan Muradxanov, Hüseyn Əhmədov məktəbinin ənənələrini yaşadaraq və müasirlik düşüncəsi ilə onları inkişaf etdirərək, məzmununu, elmi əhatə dairəsini genişləndirərək sanballı bir elmi mövqeyə malik olmuşdur.

Azərbaycanda elmi-pedaqoji fikrin inkişafında və bir elm sahəsi kimi pedaqogikaşünaslığın formalaşdırılmasında professor Fərrux Rüstəmovun müstəsna xidmətləri vardır. Onun özünəməxsus yaradıcılıq üslubu və fərqli düşüncə tərzi vardır. Lakonik düşüncə tərzi, faktlara obyektiv münasibət, analitik təhlil, fakt və hadisələrə həmin dövrün sosial-siyasi və tarixilik müstəvisində yanaşmaq, müqayisə, ümumiləşdirmə və nəticənin əsaslandırılması kimi tədqiqatçılıq bacarığı onun yaradıcılığına xas olan keyfiyyətlərdir.

Professor Fərrux Rüstəmovun pedaqogika elmi sahəsində xidmətləri çoxdur. Onun yazdığı bir çox dərslik və dərs vəsaitləri müəllim və tələbələrin ən çox müraciət etdikləri mənbələr sırasında mühüm yer tutur.

Bir faktı xüsusi qeyd etmək lazımdır. 2021-ci ildə müəllim hazırlığının flaqmanı olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 yaşı tamam olurdu. Hazırlıq ərəfəsində heç bir mübaliğə olmadan deyirəm ki, gecəli-gündüzlü işləyənlərdən, arxivlərdə çalışan, ötən yüz ili “canlandıranlardan” məhz Fərrux müəllim oldu. İkicildlik “Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi”, “Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları”, “Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları” kitabları həqiqətən də nadir və çox böyük əziyyət, zəhmət tələb edən əsl tarixi tədqiqatlar oldu.

Professor F.Rüstəmovun şəxsiyyəti təkcə bunlarla məhdudlaşmır. Əsl pedaqoqlara məxsus humanistlik, ehtiyacı olsun-olmasın hamıya, xüsusən gənc tədqiqatçılara kömək etmək, elmi rəhbərimiz olan mərhum akademik Hüseyn Əhmədov kimi onların əlindən tutub irəliləmələrinə yardımçı və dəstək olmaq Fərrux müəllimi ən gözəl keyfiyyətlərindən biri kimi tanıtdırır və sevdirir. Dostcanlı, həmkarlarına qarşı səmimi, tələbə və yetirmələrinə mehriban münasibət, hamıya kömək etməyi özünə borc hesab edən Fərrux müəllim tələbələri tərəfindən də çox sevilən müəllimlərdəndir. Onun istər yüksək elmi məclislərdə, istərsə də tələbə auditoriyalarında mühazirələri və çıxışları həmişə maraqla qarşılanır və dinlənilir. Çünki burada həmişə yeni söz, yeni fikir və yeni faktlar olur ki, bunlar da dinləyicini istər-istəməz özünə cəlb edir.

Azərbaycan pedaqoji mühitində özünə möhkəm mövqe qazanan, fikirləri ilə hesablaşılan alimlərdən biri olan Fərrux Rüstəmov pedaqoji sahədə yeni bir ənənənin əsasını qoyub. Elmi redaktorluğu ilə doktorantlarının əsərlərinin monoqrafiya şəklində nəşrinə nail olub. Həmin əsərlərə geniş “Ön söz” yazaraq tədqiqatçıların ilk qələm təcrübələrinə yüksək qiymət verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə hazırlanan “Azərbaycan Milli Ensiklopediyası”nın “Azərbaycan cildi”ndə pedaqogika elmi haqqında xüsusi oçerkin yazılması, professor Misir Mərdanovun “Azərbaycan təhsil tarixi” çoxcildliyinin elmi redaktorluğunun ona həvalə olunması Fərrux Rüstəmovun elmi-pedaqoji ictimaiyyət arasında yüksək nüfuzuna, intellektual səviyyəsinə və kreativ düşüncə sahibi olmasına dəlalət edir. Pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov ömrünün ən məhsuldar dövrünü yaşayır. “Azərbaycan Dövlət Pedaqoji Universitetinin yubeliyi” (yubileydən-yubileyə), “Azərbaycan Dövlət Pedaqoji Universiteti və Birinci Ümumittifaq Türkoloji Qurultay” kitabları üzərində işləyir. Ona bu yubiley ilində uzun ömür, möhkəm cansağlığı və daha böyük yaradıcılıq uğurları arzu edirik.

**Müseyib İLYASOV,**
*ADPU-nun Təhsil menecmenti kafedrasının professoru, pedaqogika elmləri doktoru, Əməkdar müəllim*

# DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜSÜ




Azərbaycanlı gənclərin dünyanın nüfuzlu universitelərində təhsil alması və müxtəlif elmi-tədqiqat mərkəzlərində çalışması son illərdə xoş ənənəyə çevrilib və artıq bu tendensiya sevindirici bəhrələrini verməkdədir. Elmi-tədqiqatlara maraq göstərən, bu sahədə uğurları ilə nüfuzlu elmi mərkəzlərin diqqətini cəlb edən gənc tədqiqatçılarımızdan biri də, neyropsixoloq və beyin elmləri üzrə tədqiqatçı kimi fəaliyyət göstərən, Azərbaycan Altsheymer Assosiasiyasının qurucularından olan Aygün Bədəlovadır. O, ali təhsilini tibb və psixologiya sahəsində alıb. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının “University College London” ali təhsil müəssisəsində Səhiyyə və rifah ixtisas istiqaməti üzrə doktorantura təhsili alıb.

# Qadınların elmdə iştirakı elmi mühitin müxtəlifliyini artırır

## Neyrologiya təhsil proseslərinin daha səmərəli qurulması üçün elmi baza yaradır

Gənc tədqiqatçının akademik yolu erkən mərhələlərdən etibarən beyin funksiyalarının elmi əsaslarla öyrənilməsinə, xüsusilə də koqnitiv proseslərin neyroloji mexanizmlərinə yönəlib. Daha sonra neyropsixologiya üzrə magistratura təhsilini “Ingilterede Royal Free Hospital” da tamamlayıb.

Elmi fəaliyyəti əsasən yaddaş, diqqət və digər yüksək koqnitiv funksiyaların struktur-funksional xüsusiyyətlərinin araşdırılması ilə bağlıdır. Akademik karyerası boyunca beynəlxalq elmi mühitdə çalışıb, multidissiplinar tədqiqat qruplarında yer alıb və hazırda neyroelm sahəsində aparılan beynəlxalq layihələrdə tədqiqatçı kimi fəaliyyət göstərir.

Aygün Bədəlova 2025-ci ilin martında Londonda “Dementias Platform UK” və “Alzheimer's Society” tərəfindən təşkil edilmiş beynəlxalq konfransda demensiyya sahəsində tədqiqat mövzusunda çıxış edib və “Ən yaxşı təqdimat qalibi” nominasiyası üzrə 300-dən çox səs toplayaraq qalib seçilib.

“Azərbaycan müəllimi”nə müsahibəsində gənc tədqiqatçı elmi-tədqiqatlarından, uğurlarından, neyroelm və təhsil arasındakı əlaqələrdən danışıb.

– *Doktorantura təhsiliniz və tədqiqat mövzunuz barədə ətraflı məlumat verərdiniz.*

– Doktorantura təhsilimi Böyük Britaniyada, “University College London” (UCL) nəzdində fəaliyyət göstərən “Brain Repair and Rehabilitation” şöbəsində, neyrologiya və neyropsixologiya istiqamətində tamamlamışam. Tədqiqat fəaliyyətim əsasən “Institute of Neurology” və “Queen Square Hospital” bazasında həyata keçirilmiş və Altsheymer xəstəliyi olan pasiyentlər üzərində aparılmışdır. Tədqiqatın əsas məqsədi Altsheymer xəstəliyi zamanı müşahidə olunan spesifik yaddaş pozuntularının, xüsusilə adların xatırlanması ilə bağlı çətinliklərin neyroloji əsaslarının araşdırılması olmuşdur. İş çərçivəsində koqnitiv performansda baş verən dəyişikliklərlə beyində müşahidə olunan funksional dəyişikliklər arasındakı əlaqə sistemli şəkildə təhlil edilmişdir.

Tədqiqat prosesində tərəfimdən 48 demensiyalı pasiyentə altı həftə müddətində strukturlaşdırılmış terapiya proqramı tətbiq olunmuşdur. Pasiyentləri terapiyadan əvvəl və sonra “MEG” (maqnetoensefaloqrafiya – beynin işinin öyrənilməsi metodu) müayinəsindən keçirmişəm, bununla da terapevtik müdaxilənin beyin fəaliyyətində yaratdığı dəyişikliklər obyektiv neyroelmi göstəricilər əsasında tərəfimdən qiymətləndirilmişdir. Əlavə olaraq, əldə olunan nəticələrin davamlılığını araşdırmaq məqsədilə terapiyadan üç ay sonra izləmə qiymətləndirmələri aparmışam.

Tədqiqatda davranış göstəriciləri ilə yanaşı, “EEG” (elektroensefalografiya – beynin elektrik fəaliyyətini ölçən nevroloji müayinə) və “MEG” kimi yüksək zaman dəqiqliyinə malik neyroelmi metodlardan istifadə edilmiş, bu yanaşma koqnitiv dəyişikliklərin neyrofunksional mexanizmlərini daha dəqiq şəkildə müəyyən etməyə imkan yaratmışdır.

– *Bu tədqiqat mövzusu sizin üçün nə ilə əhəmiyyətlidir və elmi hədəfləriniz nələrdir?*

– Seçilmiş mövzu neyrodegenerativ xəstəliklərin mexanizmlərinin daha dərindən anlaşılması baxımından elmi aktuallıq daşıyır. Bu sahəyə marağım koqnitiv pozuntuların klinik və eksperimental müstəvidə müşahidəsi zamanı formalaşıb. Tədqiqat fəaliyyətimin əsas məqsədi beynin funksional dəyişikliklərini obyektiv neyroelmi göstəricilər əsasında təhlil etmək və əldə olunan nəticələri elmi cəhətdən əsaslandırılmış müdaxilə modellərinin inkişafına yönəltməkdir. Uzunmüddətli hədəf neyroelm və klinik tətbiqlər arasında körpü rolunu oynayan tədqiqatlar aparmaqdır.

– *Beynəlxalq tədbirlərdə təqdim etdiyiniz elmi nəticələrin əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

– Elmi nəticələrim müxtəlif beynəlxalq konfrans və simpoziumlarda təqdim olunmuşdur. Təqdim olunan nəticələr yaddaşla əlaqəli koqnitiv funksiyalarda müşahidə olunan dəyişikliklərin beyində spesifik neyrofunksional markerlərlə müşayiət olunduğunu göstərir. Bu tapıntılar neyroplastiklik anlayışının klinik kontekstdə empirik əsaslarla izahına töhfə verir və gələcək tədqiqatlar üçün metodoloji çərçivə formalaşdırır.

– *Neyrologiya və təhsil arasındakı elmi əlaqəni necə dəyərləndirirsiniz?*

– Neyrologiya öyrənmə, yaddaş, diqqət və icraedici funksiyaların bioloji əsaslarını izah edən əsas elmi sahələrdən biridir. Bu biliklər təhsil proseslərinin daha səmərəli qurulması üçün elmi baza yaradır. Neyroelmi tədqiqatlar göstərir ki, öyrənmə proseslərinin effektivliyi fərdin koqnitiv xüsusiyyətləri ilə birbaşa əlaqəlidir. Bu baxımdan neyrologiya təhsilin elmi əsaslandırılmasında mühüm rol oynayır.

– *Koqnitiv və idraki səriştələrin inkişafı baxımından hansı yanaşmalar vacibdir?*

– Koqnitiv inkişaf mərhələli və sistemli yanaşma tələb edir. Təlim mühitində diqqət, yaddaş və problem həlletmə bacarıqlarının stimullaşdırılması elmi əsaslarla həyata keçirilməlidir. Koqnitiv proseslərin qiymətləndirilməsi və fərdi xüsusiyyətlərin nəzərə alınması bu prosesin əsas komponentlərindəndir. Elmi sübuta əsaslanan texnoloji və metodoloji vasitələrin tətbiqi koqnitiv səriştələrin davamlı inkişafını təmin edə bilər.

– *Elm sizin üçün nə ifadə edir və qadın üçün elmin rolu necə qiymətləndirilə bilər?*

– Elm mənim üçün analitik düşüncə, metodoloji dəqiqlik və bilik istehsalı prosesidir. Elmi fəaliyyət uzunmüddətli intellektual məsuliyyət və davamlı inkişaf tələb edir. Qadınların elmdə iştirakı elmi mühitin müxtəlifliyini artırır və bilik istehsalına fərqli perspektivlər qazandırır. Elmi fəaliyyət cinsiyyətlə deyil, elmi bacarıq və metodoloji yanaşma ilə müəyyən olunur.

– *Elmi fəaliyyətinizdə gördüyünüz dəstək barədə nə deyə bilərsiniz?*

– Elmi yolumun formalaşmasında ailəmin dəstəyi, akademik rəhbərlərimin elmi yönləndirmələri və beynəlxalq elmi komandalarla əməkdaşlıq mühüm rol oynayıb. Elmi mühitdə qurulan peşəkar əlaqələr tədqiqatların keyfiyyətinin yüksəlməsinə və beynəlxalq səviyyədə təqdim olunmasına imkan yaradıb.

– *Azərbaycanda qadınların elmi-tədqiqat fəaliyyətində iştirakı barədə fikirləriniz.*

– Azərbaycanda qadınların elmi fəaliyyətdə iştirakı getdikcə genişlənir. Akademik mühitdə bərabər imkanların yaradılması, elmi infrastrukturun gücləndirilməsi və beynəlxalq əməkdaşlıqların təşviqi qadınların elmi potensialının daha səmərəli reallaşdırılmasına şərait yarada bilər.

– *Gələcək elmi hədəfləriniz nələrdir?*

– Gələcək fəaliyyətim neyrodegenerativ xəstəliklər, koqnitiv neyropsixologiya və funksional beyin mexanizmləri üzrə elmi-tədqiqatların davam etdirilməsinə yönələcək. Beynəlxalq elmi layihələrdə iştirakın genişləndirilməsi və əldə olunan nəticələrin yüksək impaktlı elmi platformalarda təqdim edilməsi əsas prioritetlər sırasındadır.

**Oruc MUSTAFAYEV**

# Dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanılıb




Elm və Təhsil Nazirliyi tərəfindən 2026—2027-ci tədris ili üçün ümumi təhsil müəssisələrinin müvafiq sinifləri üzrə təkmilləşdirilməsi və ya hazırlanması planlaşdırılan dərslik layihələri, eləcə də onlarla komplekt təşkil edən metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsi prosesinə başlanılıb.

Dərslik komplektlərinin layihələri *www.trims.edu.az* saytının "İctimai müzakirədə olanlar" bölməsində mərhələli şəkildə yerləşdirilir. Yaxın vaxtlarda bütün layihələrin platformada təqdim olunması başa çatdırılacaq. Maraqlı tərəflər sayt vasitəsilə müzakirəyə çıxarılmış dərslik komplektlərinin məzmunu ilə tanış ola, xüsusi bölmədə rəy və təkliflərini bildirə bilərlər. Eyni zamanda rəy və təkliflərin *derslik@edu.gov.az* elektron poçt ünvanına göndərilməsi mümkündür.

Elm və Təhsil Nazirliyi elm adamlarını, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, ictimai birlikləri və digər maraqlı tərəfləri müzakirəyə təqdim olunan dərslik layihələri ilə bağlı rəy və təkliflərini bildirməyə dəvət edir.

# "Məktəbəqədər və ibtidai təhsil" jurnalının xüsusi buraxılışı

## Xüsusi buraxılış Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunub

Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizin elmi, ictimai və mədəni həyatında mühüm tarixi hadisədir. "Əkinçi" qəzetinin nəşri ilə əsası qoyulan milli mətbuatımız xalqımızın maariflənməsi, milli şüurun formalaşması və elmin inkişafında müstəsna rol oynamışdır.




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 aprel 2025-ci il tarixli "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı bu tarixi hadisəyə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz ifadəsidir. "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı redaksiyası olaraq milli mətbuat tariximizə ehtiram və minnətdarlıq nişanəsi kimi ötən ildə planlaşdırılmış xüsusi buraxılışı Azərbaycan milli mətbuatının yubileyinə həsr etməyi qərara aldıq. Bu xüsusi buraxılış həm də jurnalımızın yaradılmasının 55 illik yubileyi ilə üst-üstə düşür. Elmi-metodik jurnalın 1970-ci ildə həyata vəsiqə qazanmasında o zamankı maarif naziri, akademik Mehdi Mehdizadənin mühüm rolu olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə Azərbaycanda məktəbəqədər və ibtidai təhsilə dair ilk elmi-pedaqoji nəşr formalaşdırılmışdır. Jurnalın ilk baş redaktoru olmuş və 50 il müddətində ona rəhbərlik etmiş professor Yəhya Kərimovun böyük xidmətləri isə həm pedaqoji mətbuat ənənəsinin, həm də elmi-metodik fikrin davamlı inkişafında dərin iz qoymuşdur.

Xüsusi buraxılışda elmi-pedaqoji mətbuatın tarixi-mənəvi kökləri, dil və üslub xüsusiyyətləri, milli mətbuatın formalaşması, elmi-pedaqoji nəşrlərin təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları, müasir media təhlükəsizliyi, uşaq mətbuatının, hərbi mətbuatın inkişaf tendensiyaları, eləcə də klassik pedaqoji nəşrlərin ideya xətti geniş elmi aspektdən araşdırılmışdır. Buraxılışda "Məktəbəqədər və ibtidai təhsil" jurnalının tarixi irsinə, "Azərbaycan məktəbi" kimi elmi nəşrlərin məzmun strategiyasına, pedaqoji fikir tarixinin aparıcı müəlliflərinin fəaliyyətinə dair konseptual tədqiqatlar yer almışdır.

Göründüyü kimi, buraxılışın məqsədi yalnız tarixə nəzər salmaq deyil, həm də müasir dövrdə elmi-pedaqoji mətbuatın qarşısında duran çağırışları və inkişaf perspektivlərini müəyyənləşdirməkdir. İnformasiya cəmiyyətində elmi nəşrlərin dayanıqlılığı, müəllim və tərbiyəçi hazırlığında elmi mətbuatın rolu, elmi pedaqoji jurnalistikanın müasir konsepsiyası və metodoloji istiqamətləri buraxılışın araşdırma predmetinə çevrilmişdir.

Elmi-pedaqoji mətbuat təkcə məlumat ötürən vasitə deyil, həm də pedaqoji düşüncənin inkişafı, elm və təhsilin qarşılıqlı əlaqəsinin gücləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması, təhsil siyasətinin formalaşması və cəmiyyətin maariflənməsi baxımından strateji platformadır. Bu mənada onun keçmişini öyrənmək bu günün və gələcəyin elmi pedaqoji nəşr modelini müəyyənləşdirmək, eyni zamanda təhsilin və pedaqoji fikrin inkişafı üçün zəngin nəzəri və metodiki bazanın təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan təhsili və pedaqogikası üçün mühüm əhəmiyyət daşıyan bu xüsusi buraxılışın elmi ictimaiyyət, müəllimlər, tədqiqatçılar və jurnalistlər üçün dəyərli mənbə olacağına inanıram.

**Böyükağa MİKAYILLI,**
*"Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının baş redaktor əvəzi*

# BMU tarixində bir ilk:

## 6 ixtisası beynəlxalq akkreditasiyadan keçib

Bakı Mühəndislik Universitetinin (BMU) bakalavriat səviyyəsindəki 6 ixtisası nüfuzlu beynəlxalq akkreditasiya qurumu olan IAAR (Independent Agency for Accreditation and Rating) tərəfindən akkreditasiyadan keçib.

Akkreditasiya prosesi çərçivəsində "İnformasiya təhlükəsizliyi", "Kompüter mühəndisliyi", "İnformasiya texnologiyaları", "Kimya mühəndisliyi", "Mexanika mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi" ixtisaslarını özündə ehtiva edən iki klaster üzrə təhsil proqramları beynəlxalq standartlara uyğun hesab olunub. Bu, BMU tarixində bir ilkdir və akkreditasiya ali təhsil proqramları üçün beynəlxalq təcrübədə ən yüksək göstəricilərdən sayılan 5 illik müddətə verilib.

BMU-nun 2025-2030-cu illəri əhatə edən Strateji İnkişaf Planında təhsilin keyfiyyətinin yüksəldilməsi və təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi əsas strateji hədəflər sırasında yer alır. Beynəlxalq akkreditasiya təhsil və elmi fəaliyyətin qlobal standartlara uyğunluğunun təmin olunması, tələbə və məzunların beynəlxalq səviyyədə rəqabətqabiliyyətinin artırılması, onların xaricdə təhsil və karyera imkanlarının genişləndirilməsi, eyni zamanda universitetin beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Akkreditasiya prosesi, həmçinin ali təhsil müəssisələrinin davamlı inkişafını təşviq edir və tədris keyfiyyətinin sistemli şəkildə yüksəldilməsinə töhfə verir.

Bu mühüm nailiyyət BMU-nun mühəndislik və texnologiya sahələrində rəqabətqabiliyyətli, beynəlxalq səviyyədə tanınan kadrların hazırlanması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü fəaliyyətin növbəti göstəricisidir.

IAAR tərəfindən aparılan qiymətləndirmə zamanı təhsil proqramlarının məzmunu, tədrisin təşkili, professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi, maddi-texniki baza, tələbəyönümlü yanaşma və keyfiyyət təminatı mexanizmləri ətraflı şəkildə təhlil edilib.

IAAR ali təhsildə keyfiyyət təminatı sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq akkreditasiya agentliyidir. Avropa Ali Təhsil Keyfiyyətinin Təminatı Assosiasiyası (ENQA) tərəfindən tanınan və Avropa Ali Təhsil Keyfiyyət Təminatı Reyestrində (EQAR) qeydiyyatda olan agentlik müxtəlif ölkələrin ali təhsil müəssisələrinin təhsil proqramlarının akkreditasiyasını həyata keçirir və onun verdiyi qərarlar ali təhsilin şəffaflığı, hesabatlılığı, həmçinin keyfiyyətinin artırılmasına xidmət edir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 286 **Sifariş:** 54

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2011-ci ildə Əlicanov Hacı İbrahim oğluna verilmiş B-213328 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Ağaməliyeva Nəzrin Fuad qızına verilmiş C-107400 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qarxun kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Abduhəlimova (Bağırova) Mətanət Suphan qızına verilmiş A-184099 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Həziabad kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Hüseynova (Alışova) Səbirə Şirxan qızına verilmiş 670313 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Sabirkənd kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Əliyeva (Alırzayeva) Sadə İsax qızına verilmiş 574395 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazıqumlaq kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Məmmədova (Səmədova) Mədinə Məhəmməd qızına verilmiş A-542001 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Arus kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Əliyev Elsevər Hüseynali oğluna verilmiş A-458637 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Mirzəqurbanlı kənd ümumi orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Mustafayeva Ayşən Yusif qızına verilmiş A-601907 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı Tibb Kolleci) tərəfindən 2008-ci ildə Şıxəliyeva (Əbilova) Səyyarə Aydın qızına verilmiş BB-II-077459 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yeni Suvagil kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş İsayev Mübariz Qudbiddin oğluna verilmiş 646988 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Arzumanov Aslan Seyid oğluna verilmiş 646380 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qandax kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Məmmədova Ləman Elman qızına verilmiş E-226176 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yeni Suvagil kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Mahmudova Xalidə Rəcəb qızına verilmiş 259779 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Musiqi Texnikumu** tərəfindən 2003-cü ildə Hüseynov Əli Vaqif oğluna verilmiş AB-II-082225 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Bayramova Səbinə Bayram qızına verilmiş B-024720 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Piratman kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Xəlilzadə Qadir Abuzər oğluna verilmiş C-302873 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Məktəbi** (Bakı Xoreoqrafiya Akademiyası) tərəfindən 2001-ci ildə Nəcəfzadə (Məmmədova) Günel Şamil qızına verilmiş AB-II-067377 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2006-cı ildə Nəcəfzadə (Məmmədova) Günel Şamil qızına verilmiş BN-079017 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 29 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş İsmayılova Gülsüm İbayət qızına verilmiş A-914724 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Kültəpə kənd tam orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Cəfərova Fatimə Cəsur qızına verilmiş F-020200 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Kəhrizli kənd tam orta ümumtəhsil məktəbi 1981-ci ildə bitirmiş Cəfərova Lətifə Yəhya qızına 2019-cu ildə verilmiş A-390070 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 10 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Həsənli Məhsun Zeynal oğluna verilmiş A-583040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Rafiq Telman oğluna verilmiş A-189756 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1996-cı ildə bitirmiş Məmmədov Şahin Telman oğluna verilmiş A-051951 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 207 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Verbovskaya Fidan Sergeyevnaya verilmiş E-557539 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** 3 nömrəli tam orta məktəbi 1978-ci ildə bitirmiş Qubatov İlqar Qubat oğluna verilmiş 152339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş İsmayılova Yaqut Vidadi qızına verilmiş B-706672 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2008-ci ildə Kələntərli Zaur Azər oğluna verilmiş B-128525 nömrəli bakalavr diplomu və diploma əlavə, 2011-ci ildə verilmiş MNB-022543 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Kazımi Ülvi Elçin oğluna verilmiş C-042119 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Bıçaqçı kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Məmmədova (Qurbanova) Əmilə Emin qızına verilmiş B-322096 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş İbadzadə Turqut Şahbaz oğluna verilmiş E-200943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Hərbi Liseyin** IX sinfini 2013-cü ildə bitirmiş Fərzəliyev Soltan Eyvaz oğluna verilmiş A-252052 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2022-ci ildə Haxverdiyev Oruc Kazım oğluna verilmiş C-136512 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Seyidan kənd ümumi orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Sadıqov Asif Saməddin oğluna verilmiş F-168113 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2023-cü ildə Həsənli Hacağa Müşfiq oğluna verilmiş C-170455 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 131 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İbrahimov Mansur Əhliman oğluna verilmiş B-333059 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Körpükənd kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Rəhimova (Məmmədova ) Yazgül Şahlar qızına verilmiş B-627495 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2021-ci ildə Əliyev Mirnəcəf Nəriman oğluna verilmiş C-094116 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəmirçi kənd ümumi orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Qənbərova Günel Sədaqət qızına verilmiş A-547522 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Kələntərli kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Kərimova Samirə Arif qızına verilmiş A-086175 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Salahova Aygün Tərlan qızına verilmiş A-379048 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Mülkülü kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Babayev Hikmət Qürbət oğluna verilmiş VB-010547 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Qarayeva Aytən Elşən qızına verilmiş A-255164 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Namazova Pərvanə Bəxşeyiş qızına verilmiş B-346035 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 46 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Kərimova (Niyazova) Aytəkin Şamil qızına verilmiş B-162319 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** fizika-riyaziyyat və informatika təmayüllü liseyi 2024-cü ildə bitirmiş Tomuyev Məhəmmədəli Səməd oğluna verilmiş E-649126 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2005-ci ildə Məmmədov Fərid Kamil oğluna verilmiş B-031121 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 93 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Abbasova Nəzrin Ramil qızına verilmiş E-789622 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Lənkəran-Astara Regional Təhsil İdarəsinin kollektivi idarə müdiri Bəhruz Mehdiyevə anası

**PÜSTƏ TAHİR qızı MEHDİYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.